**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

HUMANİTAR,TƏHSİL VƏ SOSİAL ELMLƏR
FAKÜLTƏSİNİN MAGİSTRANTI

SEVİNC ŞEYDAYEVA FƏRHAT QIZININ
MAGİSTR DƏRƏCƏSİ ALMAQ ÜÇÜN

# “AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ GENDER STEREOTİPLƏRİNİN TƏDQİQİ”

MÖVZUSUNDA

## DİSSERTASİYA İŞİ

**ELMİ RƏHBƏR:** **PROF. HAMLET İSAXANLI**

**DEKAN:** **DOS. ELZA SƏMƏDOVA**

***BAKI – 2021***

# İÇİNDƏKİLƏR

**Abreviatura**..........................................................................................3

**Giriş**.......................................................................................................4

**I Fəsil. Azərbaycan təhsili tarixində Genderin rolu**................................12

**1.1** Sovet dövründən əvvəl Azərbaycan təhsili və Gender məsələləri..........12

**1.2** Sovet dövründə Azərbaycanda təhsil və gender məsələləri....................16

**1.3** Müstəqil Azərbaycan Respublikasında təhsil və Gender məsələləri.......24

**II Fəsil. Sosial amillərin gender aspektindən təhsilə təsiri**.....................28

**2.1** Gender stereotiplərinin təhsil mühitində formalaşması..........................28

**2.2** Gender stereotiplərinin ailə mühitində formalaşması.............................38

**2.3** Gender stereotiplərinin iş mühitində formalaşması................................42

**III Fəsil. Təhsil pillələrində gender statistik araşdırmaları**.....................54

**3.1** Ümumi təhsil müəssisələri üçün gender statistik araşdırmaları................59

**3.2** Orta-ixtisas və bakalavravr təhsili üçün gender statistik araşdırmaları.....60

**3.3** Magistratura və Doktorantura təhsil səviyyələri üçün gender statistik araşdırmaları..........................................................................................65

**Nəticə və təkliflər**..................................................................................72

**Ədəbiyyat siyahısı**..................................................................................80

## Abreviatura

BMT – Birləşmiş Millətlər Təşkilatı

UNDP – BMT-nin İnkişaf proqramı (United Nations Development Organization)

UNESCO – Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu (United Nations Educational, Scientific and Cultural Organization)

SSRİ – Sovet Sosialist Respublikası

SDG – Dayanıqlı inkişaf məqsədləri (Sustainable Development Goals)

CEDAW - Convention on the Elimination of All Forms of Discrimination against Women

LGBT – Lezbiyan, Gey, Biseksual, Transeksual

GSM – Gender və cinsi azlıqlar (Gender and Sexual Minorities)

QQAAK – Qadınlara Qarşı Ayrı-seçkiliyin bütün formalarının Aradan qaldırılması üzrə Konvensiya

UNİCEF – BMT-nin Uşaq Fondu (United Nations International Children's Emergency Fond)

MDB – Müstəqil Dövlətlər Birliyi

UNFPA – BMT-nin Əhali Fondu ( United Nations Population Fund)

İEA – Təhsil Uğurlarının Qiymətləndirilməsi Beynəlxalq Assossiasiyası (İnternational Assossiation for the Evaluation of Educational Achievement)

## Giriş

Gender - Bioloji fərqlər əsasında müəyyənləşdirilən cinsdən fərqli olaraq, gender (ona həmçinin sosial cins deyilir) kişi və qadınların ictimai və sosial münasibətlər çərçivəsində (məsələn, ailədə, məktəbdə, iş kollektivində) formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan "kişi" və "qadın" sosial kategoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm sosial klassifikasiyalarla bərabər (ictimai sinif, irq, etnik qrup və sair), gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən əsas amillərdən biridir (29, s. 14).

Beləliklə, gender cinsdən fərqli olaraq, qadın və kişidən cəmiyyət tərəfindən tələb olunanın nə olduğunu müəyyənləşdirən sosial normaları (davranışlar, hisslər, fikirlər və rollar) əhatə edir (29, s. 14).

İnsanların inkişafı onların cins və ya gender mənsubiyyətinə əsasən məhdudlaşdırılmamalıdır. Gender bərabərliyi qadınların və kişilərin, oğlanların və qızların bərabər hüquqları, vəzifələri və imkanları deməkdir. Ancaq bu, fərdlərin cəmiyyətdə fəal rol oynaması və cəmiyyətlə uyğun yaşamaq hüququnu bilmək və istifadə etmək bacarığı ilə sıx bağlıdır. Təhsil başqa hüquqları bilmək və istifadə etmək üçün çox vacib olan haqqlardan biridir. Bu fikir və yanaşmaya əsaslanaraq, bu dissertasiya işində əsasən gender və təhsil anlayışlarına diqqət yetirilir. Bu anlayışlardan, Azərbaycandakı gender bərabərliyi əsasında qadınların və kişilərin təhsil vəziyyəti , onların təhsilinin fərdi və ictimai şəkildə əks olunması üçün bir vəziyyət təsbit edilmişdir. Bu məqsədlə, təhsil hüququ və təhsilin əhəmiyyəti fərdi və sosialdır.

Burada qadınların və kişilərin sosial vəziyyəti və təhsil səviyyəsinin tapıntıları, qadınların ailə, təhsil və iş həyatında rolu və müəyyən edilmiş problemləri həll etmək üçün səylər müzakirə olunur.

Cəmiyyətdəki gender bərabərliyini təmin etməyə doğru irəliləmək, qadınlardan və kişilərdən gözlənilən ictimai rollara dayanaraq ictimai kimliyin formalaşmasını və bunların sosial, iqtisadi və mədəni olaraq necə dəyərləndirildiyini anlamaq deməkdir. Gender rolları birbaşa olaraq təhsil kimi əsas amilin təsirindən qaynaqlanır (30, s. 1). Bunu nəzərə alaraq, dissertasiya işi təhsil sahəsində hər iki cinsiyyətin bərabər imkanlarını müqayisə edir.

Gender stereotipləri – qadınlar və kişilər olaraq iki hissəyə bölünən bütün insanlığın həyatında mühüm rol oynayan, onların davranış və düşüncələrini, cəmiyyətdə özlərini necə aparmalı olduqlarını nümayiş etdirən bir anlayış, təsəvvürdür. Lakin gender rolları və gender stereotipləri arasında çox incə bir sərhəd vardır. Gender rolları cəmiyyətin tələb etdiyi davranış nümunələrini əks etdirir. "Tarixən cinsi fərqlərin qadın və kişi şəxsiyyət keyfiyyətlərinin fərqləndirilməsindən üstün hesab olunması əsasında formalaşmış gender münasibətləri modeli gender stereotiplərin meydana çıxmasına səbəb olmuşdur". Məşhur filosof Platon öz əsərlərində qadın və kişiləri belə ayırd etmişdir: "Öz təbiətinə görə həm qadın, həm də kişi istənilən işdə iştirak edə bilər, lakin qadınlar hər cəhətdən kişilərdən daha zəifdirlər". (3)

Qeyd etmək labüddür ki, adət-ənənələr, xüsusilə milli və mədəni dəyərlərimiz çox qədim köklərə dayanmasından əlavə, Azərbaycan xalqının özünəməxsusluğunu vurğulayır və cəmiyyətimizə fərqlilik qatır. Lakin bildiyimiz kimi, stereotiplər iki cürdür: neqativ və pozitiv. Milli adət-ənənələrimiz pozitivi stereotiplərlə cəmiyyətimizə töhfəsini vermiş olsa da, müasir dövr üçün çətinlik yaradan, eyni zamanda ölkəni iqtisadi, sosial və siyasi cəhətdən geri salan neqativ

stereotipləri də bərabərində gətirir. Bu dissertasiya işinin məzmunu da məhz xalqın mədəniyyətini və dəyərlərini qorumaqla bərabər, neqativ gender stereotiplərin ölkənin və cəmiyyətimizin inkişafı üçün yaratdığı maneələri görmək və onu ilk növbədə təhsil sistemində ən minimal hala qədər azaltmaqdır. Bunun üçün də, gender maarifləndirilməsi əsas şərtdir.

"Gender maarifləndirilməsi aşağıdakı məqsədlərə nail olmaq üçün vacib alətdir:

- şəxsiyyət hüquqlarının prioritetliyi prinsipləri əsasında demokratik cəmiyyətin qurulması (demokratiya cinsin xüsusiyyətlərini «dərk və hiss etməlidir»);
- dövlətin həqiqi milli təhlükəsizliyinin saxlanması: ölkənin hər hansı bir cinsin potensialından istifadə olunmamasına və ya az istifadə olunmasına yol verməməsi;
- beynəlxalq səviyyədə ölkənin rəqabət qabiliyyətinin möhkəmləndirilməsi;
- öz üzərinə beynəlxalq və daxili öhdəlikləri götürmüş hakimiyyətin nüfuzunun möhkəmləndirilməsi." (3)

Gender maarifləndirilməsi cəmiyyətdə və ölkədə ümumi rifah yaradan, demokratikliyi bərqərar edən, vətəndaşların hüquqlarını və şəxs seçimlərini tənzimləyən önəmli və atılması vacib bir addım və hədəfdir. Gender maarifləndirməsi ölkəyə iqtisadi cəhətdən çoxlu üstünlüklər verir. Siyasət və idarəetmə üzvləri üçün məlumat bazaları artırılır ki, bu da onların cəmiyyətin ümumi sosial və iqtisadi məsələlərinə əlçatımlılığını artırır. Bu bazaların keyfiyyətliliyi həmçinin ölkədə daha məqsədəuyğun və birbaşa hədəflər yönündəki nailiyyətlərin və ölkədaxili sabitliyin təmin olunmasına şərait yaradır.

Cəmiyyətin bu mövzuda bilgiləndirilməsi və mövzunun aktuallığının artırılması həmçinin, qeyri-hökümət təşkilatlarının da xeyrinədir. Belə ki, gender bərabərliyi

barədə məlumat artdıqda, baza məlumat sistemi də formalaşır, müxtəlif sosial qruplardan alınan fikirlər daha düzgün şəkildə toplana bilir və nəticədə haqları tapdalanan xüsusilə qadınların müdafiə olunma prosesi rahatlaşır, cəmiyyət üzvlərini geniş düşünməyə doğru inkişafa dəstəkləyir.

Gender maariflәndirilmәsi araşdırmaçılar üçün tədqiqat işlərinin keyfiyyətli analiz və nəticələri deməkdir. "O, tədqiqatların dərin təhlilinə, müxtəlif qrupların maraqlarının sosial və iqtisadi məzmununun anlaşılmasına yol açır, siyasi kurs, proqram və ölçülərlə qarşılıqlı təsirdə bu maraqların uyğunluğunu açmağa imkan verir, inkişaf və proqnoz-tövsiyyələrin mümkün ssenarilərinin kompleks təqdiminin mümkünlüyünü yaradır." (3)

**Mövzunun aktuallığı.** Hal-hazırki dövrdə ətraf aləmin sürətlə dəyişməsini nəzərə alsaq, insan övladının daima dəyişməsi, yeniliklərlə ayaqlaşması üçün daim öyrənməli olduğunun labüdlüyünün də fərqinə varmış oluruq. Təhsil keçmiş dövrlərdən indiki dövrümüzə qədər təkcə insanın şəxsi inkişafında deyil, dövlətin iqtisadi, siyasi və sosial cəhətdən inkişafında da çox əhəmiyyətli bir faktordur. Buna görə də, hər bir ölkə hər il öz təhsil sisteminə milyonlarla yatırım edərək, təhsilin keyfiyyətini, təhsilalanların sayını artırmağa çalışır. Lakin demək olar ki bütün dünyada hələ də cinsi bərabərsizliklə bağlı mühüm neqativ stereotiplər olduğundan təhsil kişilər üçün önəmli, qadınlar üçün önəmli olmayan bir nüans kimi qeyd edilir. Təhsilə təsir edən bu stereotiplər şagirdlərin kiçik yaşlardan etibarən şəxsiyyətinin formalaşmasında güclü rol oynayır və həmin şəxsiyyətlər yetişdikdən sonra cəmiyyətimizi indi olduğu kimi iki ayrı hissəyə parçalayır :

- Qadınlar övladları , ailələri üçün təhsil almalıdır, kişilər şəxsi inkişaf və karyera üçün təhsil almalıdır

- Qadınların sənəti humanitar sahələrlə, kişilərin sənəti daha çox texniki sahələrlə əlaqədar olmalıdır

- Qadınlar iş saatı və əmək haqqı az olan yerlərdə işləməli, kişilər isə statuslu və daha prestijli peşə yönlərində çalışmalıdırlar və s.

Bugün rəqabətqabiliyyətli bir təhsil sisteminin olması, dünya ölkələri ilə iqtisadi, siyasi və sosial cəhətdən ayaqlaşmaq üçün əsrlər boyu davam edən və qoruyub saxlanılan neqativ stereotiplər və dəyərlər dəyişilməli və ya mövcud şəraitə uyğunlaşdırılmalıdır. Cəmiyyətdə davam edən bu dəyişiklik ailə adlı kiçik cəmiyyətdə də uşaq tərbiyəsi ilə bağlı dəyişikliklərdə mühüm rol oynayacaq və təhsil proqramında olan tələblərə - stereotiplərə cavab verən boşluqları aradan qaldıracaq.

Adət-ənənələr nəsildən-nəsilə ötürülən, mədəniyyətin bariz nümunəsi olmaqla yanaşı, dövrdən-dövrə dəyişimə məruz qalmalı olan, zamanın tələbinə uyan formaya gəlməlidir. Bu proses olmadığı halda , cəmiyyətin yanlış anladığı və ya keçmiş dövrdən bəri yanlış olan və haqqında düşünülməyən stereotiplər, vərdişlər meydana gəlir. Təhsilə gətirilən bu qarşısıalınmayan stereotiplər növbəti nəslin yetişməsinə və qurulan cəmiyyətin eyni formada problemlərlə qarşılaşmasına şərait yaradır. Stereotipləri qırmaq təkcə məktəbdən və ya təhsil müəssisəsindən asılı deyil, eyni zamanda ailədən və insanın yaşadığı cəmiyyətdən də asılıdır. Uşaq hələ ailə və məktəbəqədər təhsildən məktəbə artıq stereotiplərlə ayaq atır. Keçmişdən gələn dəyərlər və gələcəyi yaradan dəyərlər məhz təhsil prosesində qarşılaşır. Dünya təhsil sistemləri cəmiyyətin tələblərini yaradaraq, onların dəyər sistemini mənimsəyərək şagirdlərinə ən uyğun formada bunu ötürməyi məqsəd qoyur.

**Tədqiqatın məqsədi.** Bu tədqiqatın əsas məqsədi Azərbaycan təhsil sistemində olan gender stereotiplərinin tədqiq edilməsi və keçmişdən indiyə olan dəyişikliklərin qarşılaşdırılmasından ibarətdir. Tədqiqatın məqsədi istiqamətində müəyyən edilmiş tədqiqat sualları aşağıdadır:

1. Azərbaycan təhsil tarixində gender stereotipləri özünü necə büruzə verir?

2. Keçmişimizdən indiyə kimi cəmiyyətdə önəmli rol olan neqativ gender stereotipləri təhsil sistemində hansı boşluqlar yaratmışdır?

3. Belə gender stereotiplərinə təsir edən əsas amillər hansılardır və bu amillər hansı nəticələrə gətirib çıxarır?

4. Təhsil sistemindəki neqativ stereotiplərə uyğun olan statistik nəticələrdə gender bərabərsizliyi necə göstərilmişdir?

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan təhsilində yer alan cinsi bərabərsizliklərlə bağlı stereotiplər və onların hazırki nəticələri təşkil edir. Tədqiqatın predmeti isə gender haqqında təhsil strategiyası və gender haqqında qanunu ilə təhsil prosesinin hansı dərəcədə bir-biri ilə uyğunluq təşkil etdiyinin aşkarlanmasından ibarətdir.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya işində Azərbaycan təhsil sistemində formalaşması nəzərdə tutulan gender amili ilə bağlı milli, mənəvi və qlobal dəyərlər araşdırılmışdır.

**Tədqiqatda istifadə olunmuş metod.** Tətqiqat işi zamanı sənədlər, elmi ədəbiyyatlar, xəbərlər,məqalələr ilə iş metodundan istifadə olunmuşdur.

**Tədqiqat işinin informasiya bazası**. Tədqiqat işində əsas mənbə kimi 30-dan çox azərbaycan, ingilis, rus, türk ədəbiyyatlarından, internet resurslarından və digər vəsaitlərdən istifadə olunmuşdur.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya mündəricat, giriş, 3 fəsil, 9 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, işin obyekti və predmeti, elmi yeniliyi, eyni zamanda genderlə bağlı olan xüsusi terminlərin tərifləri və izahı, elmi işin metodları və strukturu haqqında geniş məlumat verilir.

Tədqiqat işinin birinci fəsli "Azərbaycan təhsili tarixində gender stereotiplərinin rolu" adlanır. Bu fəsildə təhsil tariximizdə qızlarla oğlanların təhsil alması, aldıqları təhsil səviyyələri, ona uyğun iş yerləri barədə ətraflı izah verilmişdir. Bu izahların bir çoxu tarix mənbələrindən, bəziləri isə bədii ədəbiyyatdan götürülmüşdür.

İkinci fəsil "Sosial amillərin gender aspektindən təhsilə təsiri" adlanır. Bu fəsildə təhsil mühitinin, ailə - məktəb münasibətlərinin və iş mühitinin insan həyatına daxil etdiyi və onun xarakterində dəyişilməz iz buraxdığı neqativ stereotiplərdən danışılır. Belə ki, gender stereotipləri formal təhsil almazdan öncə ailə mühitində artıq uşaq beyninə qeyd olunur, bu stereotiplərlə uşaqlar məktəb mühitində fikirlərini inteqrasiya edərək formalaşdırır və iş mühitində bugünkü disbalansın davam etməsinə səbəb olurlar.

Üçüncü fəsil isə "Təhsil prosesində gender araşdırmaları" adlanır. Bu fəsil bizə statistik göstəricilərə əsasən, təhsil sisteminin idarəetmə prosesinə əksəriyyət olaraq, kişilərin hakim olduğunu, tələbə-şagirdlərlə birbaşa əlaqədar olan vəzifələrin isə qadınlar tərəfindən tutulduğunu aydın şəkildə nümayiş etdirir.

Nəticə və təkliflər hissəsində dissertasiya işinin yazılması zamanı ortaya qoyulmuş tədqiqat suallarından çıxan nəticələr qeyd olunmuş və ona uyğun təkliflər verilmişdir.

Sonda isə ədəbiyyat siyahısı və internet resursları qeydə alınmışdır.

# I Fəsil. Azərbaycan təhsil tarixində genderin rolu

Azərbaycan Təhsil Tarixindən söz açdıqda, Çar Rusiyası dövründən başlayaraq danışmaq lazımdır. Ümumən təhsil tariximizi 3 hissəyə bölə bilərik:

Sovet İttifaqından əvvəlki dövr, Sovet dövrü, Postsovet və ya Müstəqil Azərbaycan Respublikası.

## 1.1 Sovet dövründən əvvəl Azərbaycan təhsili və gender məsələləri

Hər bir dövrə məxsus məşhur yazıçı və şairlərimiz də olmuşdur ki, onların sayəsində bu gün bir sıra tarixi faktlardan xəbərdar oluruq və mədəni keçmişimiz davam edir. Tarixə nəzər salsaq görərik ki, qadınların rolu kişilərin rolundan heç də az olmamışdır. "Sadəcə tarix kişi fəaliyyətləri üzərində yazılmışdır ki , bu da tarixdə qadınların rolunu bir xeyli diqqətdən kənar qoyur" (15, s. 8). Bu mövzuda da gender məsələsini əsas nöqtə kimi ortaya qoymağımızın səbəbi təhsil tariximizdə kişi aspektindən daha çox qadın aspektini də göz önünə gətirmək və araşdırmaqdır.

19-cu əsrdə Qafqazda ən çox avropalaşmış və həmin regionun mədəni paytaxtı hesab edilən şəhərlərdən biri Tiflis(Tbilisi) olmuşdur. Qarabağdan, Gəncədən, Bakıdan olan azərbaycanlı elit ailələri öz uşaqlarını Tiflisə(Tbilisiyə) ali təhsil almağa göndərirdilər. Sovet çevrilişindən əvvəl ailələr üçün ali təhsil və qadınların örtüksüz gəzməsi normal görünürdü. Amma Azərbaycan qadınlarının böyük çoxluğu (kənddə və şəhərin qıraq ərazilərində yaşayanlar) savadsız və örtülü idilər. Eyni zamanda, azərbaycanlı moderncilərə görə qadınlara aid olan bu faktor bütün cəmiyyəti geri salırdı.

Rusiya və avropalı azad düşünürlərin dövründə qadın hüququ və onların təhsili ən vacib məsələlərdən birinə çevrilmişdi. Həmin dövrdə bolşevik Azərbaycan qadınları (qadın hərəkatının özəyini quranlar və aktivistlər) müasir müsəlman qızlar məktəbini bitirirdilər. Belə məktəblər Bakıda və Qafqazın digər bölgələrində XX əsrin ilk iki dekadasında yaradılırdı.

Həmin dövrdə azərbaycanlı maarifçilərimizdən əlavə, bir çox rus yazıçı və şairləri də Azərbaycan qadınının obrazını, həyatın bir çox istiqamətlərində yaşadıqları çətinlikləri öz əsərlərində ifadə edirdilər. Onlardan biri də Qafqaz xalqlarının tarixi və məişəti ilə dərindən maraqlanan rus şairi Y.P. Polonski idi. Polonskinin "Tatarka" (Azərbaycan qadını 1848) əsərində Azərbaycan qadınının gözəlliyi haqqında məlumat verilmişdir. Bundan başqa əsərdə Tatar qadını dekorasiya kimi göstərilir, qadın çox vaxt rəngli geyinir. Belə ki, tatar kişiləri qadınlara onların köləsi kimi davranır və onlara itaət etmədikdə heyvan kimi döyür. Onlar heç vaxt qadınlara hisslərini ifadə etmir və qadınlardan bunu soruşmurlar (28, s. 77).

Gender bərabərsizliyinə, qadınların təhsilsiz olmağına müsəlman Azərbaycan mədəniyyəti isə nümayiş etdirilənlərdən fərqli olaraq, ayrıca təsir göstərirdi. 1901-ci il oktyabrın 7-də Bakıda böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə müsəlman Şərqində ilk dünyəvi qız məktəbi yaradılmışdır. Heç şübhəsiz Bakıda qızlar liseyinin açılması ənənəvi müsəlman cəmiyyətinin içində inqilabi bir ideya idi. Buradakı daxili həyətdə tələbə qızlar sərbəst şəkildə gəzib-dolaşa bilərdilər. Bakının neftxudalarından biri və şəhərin ən böyük xeyriyyəçisi Hacı Zeynalabdın Tağıyev inanırdı ki, təhsilli qız, təhsilli ana olacaq və övladlarına daha geniş imkanlar yaradacaq və onları gələcək həyata daha yaxşı hazırlaya biləcək. Tağıyevdən nümunə götürülərək başqa və daha kiçik qız məktəbləri açılırdı. 1915-ci ildə Bakıda artıq 5 qız məktəbi var idi. "Qızlar məktəbi üçün binanın layihəçisi və inşaatçısı İosif Qoslavski (1865 -

1904) əslən, o zamanlar Rusiya İmperiyasının bir hissəsi olan Polşadan idi" (28, s. 98).

1911- 1912 ci illərdə Bakıda Azərbaycan qadınları tərəfindən dərc olunan Azərbaycan qadınına aid "İşıq" jurnalı fəaliyyət göstərirdi, habelə 1923-1937 ci illərdə bolşevik azəri qadını tərəfindən "Şərq qadını" jurnalı dərc edilirdi. Bu jurnalların dərc olunmasının ən önəmli məqsədi Azərbaycan qadınını savadlılığa meyilləndirmək, qadınlar arasında təhsili kütləviləşdirmək, onları maarifləndirmək idi.

20-ci əsrin əvvəllərində Azərbaycanda qızlar əksərən evdən kənarda təhsil ala bilmirdilər. Ancaq çox az ziyalı ailələri öz qızlarının evdənkənar təhsilə cəlb olunmasına yanaşırdı. "Xalqımızın böyük maarifçiləri, məşhur yazıçıları və ictimai xadimləri M.F.Axundov, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, Ə.Ağayev, C.Məmmədquluzadə, S.Axundzadə, N.Şıxlinskaya, H.Z.Tağıyev, M.Ə.Sabir, Ü.Hacıbəyov, C.Cabbarlı, Ö.F.Nemanzadə və başqaları Azərbaycanda qadın təhsilinin ictimai qadağalardan azad olması yolunda yorulmadan çalışmışlar" (32, s. 269). "Təxminən 30-40 ildən sonra tarixi miqyasda kifayət qədər kiçik vaxt ərzində Sovet siyasəti (kollektivləşmə, təhsil islahatları, sənayeləşmə, şəhər əhalisinin artımı, ailə, qadın və nikah sahəsində qəbul edilən qanunlar və aparılan ictimai kampaniyalar) və İkinci Dünya Müharibəsi şəraitində cəmiyyətdə əmək bölgüsünün dəyişməsi gender münasibətlərinə də ciddi dəyişikliklər gətirdi" (32, s. 269). Bu proses qadınların cəmiyyətdəki rolunu artıraraq, yazılmamış bir sıra qanunların aradan qaldırılmasına, dəyişilməsinə şərait yaratdı:

- Qadınların təhsil alması cəmiyyətdə normal hal kimi qarşılanmağa başladı
- Oğlanların və qızların ictimai sahədə münasibətlərinin formalaşmasına şərait yarandı

- Qadınların pedaqoji sahələrdə ixtisaslaşaraq, çalışması kütləviləşdi.

Artıq 2012-ci ildə Azərbaycanın təhsil müəssisələrində oxuyanların 47%-ni qızlar təşkil etmiş, təhsil sahəsində çalışanların mütləq əksəriyyəti (68%) qadınlar olmuşdur (13, s. 269).

## 1.2 Sovet dövründə Azərbaycanda təhsil və gender məsələləri

"20-ci əsrin əvvəllərində ilk azərbaycanlı qadın-həkimlər kəskin ictimai qınaqla üzləşirdi. 1922-ci ildə Baki Dövlət Universitetinin Tibb Fakültəsinin məzunları arasında yalnız iki qız, Adilə xanım Şaxtaxtinskaya və Ceyran xanım Sultanova var idi. Qadınların bu sahəyə daxil olması cəmiyyətdə güclü etirazlara səbəb olmuşdu" (13, s. 270).

Qadınların yiyələnə biləcəkləri qadağan olunmuş vəzifələrdən biri də o dövr üçün həkimlik hesab edilirdi. Həmin dövr üçün cəmiyyətdə və ailədə olan köklü hakimiyyət bölgüsü qadınların evdən kənar əmək fəaliyyəti ilə məşğul olmasına və sosial həyatda öz mövqelərini tutmasına imkan vermirdi. Buna baxmayaraq, illər ərzində olan dəyişikliklər nəticəsində səhiyyə sahəsi qadınların çoxluqla çalışa biləcəyi bir istiqamət halını almışdır.

Bu sektorda qadınların işləməyə başlaması və bu sahəyə ailələrin olan marağı artıq yeni dövrün yeni gender stereotiplərinə yol açırdı. Səhiyyə sahəsində çalışan qadınların üstünlük təşkil etməsinə baxmayaraq, əksərən daha aşağı məvacibli vəzifələrdə, məsələn, tibb bacısı kimi işləyirdilər.

Ölkəmizin təhsil, sosial və professional yönlərdə inkişafı əslində sosializm quruluşundan öncəki vaxtlarda baş tutsa da, məlum SSRİ konstitusiyası gender mövzusunda heç bir fərq qoymamış, qadınlar üçün icbari orta təhsil, qadınların kişilərlə bir yerdə təhsil almasını qanunla təsbit etmişdi. Təhsil sahəsində hüquq bərabərliyi haqqında qanun hal - hazırda öz qüvvəsindədir. 2000-ci ildə təhsil üçün göstəricilər belə idi; AIi məktəblərdə 36600 nəfər qadın və 51900 nəfər kişi, orta ixtisas məktəblərində isə 26200 qadın və 12600 kişi oxuyurdu (13, s. 25).

Flora Xəlilzadənin bildirdiyinə görə, “Savadsızlığın, avamlığın, geriliyin hökm sürdüyü zamanlarda millətin aydın fikirli, işıqlı insanları, ziyalıları xalqı maarifləndirmək üçün ilk növbədə çalışırdılar ki, bu ləyaqətli missiyanı yerinə yetirmək üçün qadınlar mütləq təhsil alsınlar. Bunun üçün də hər cür mübarizə yoluna qədəm atırdılar. Gah qəzet, jurnal çap edirdilər, gah məktəb açırdılar, gah teatr “çıxardırdılar”, gah da oğlanlarını özgə millətin ziyalı xanımı ilə evlənirdilər ki, bəlkə bizimkilərin gözləri açılsın” (14).

Bundan əlavə, Azərbaycanda qadınların təhsilə cəlb olunması ilə bağlı aktual olan mövzuya bir çox xeyriyyə cəmiyyətləri də xüsusi diqqət göstərirdilər. Ölkənin milyonçu qadınları bu məsələnin aparıcı qüvvəsinə çevrilmişdilər. Ülviyyə Vahidqızının sözlərinə görə, “Murtuza Muxtarovun xanım Liza Muxtarova zadəgan ailəsində böyüdüyündən və mükəmməl təhsil gördüyündən Azərbaycanın maarifpərvər xanımları ilə birlikdə çalışaraq qızların savadlanmasına səy göstərirdi. Ən nümunəvi qadın ocaqlarından birinin də yaradıcısı məhz o olmuşdu” (25).

Ölkədən kənarda ali təhsil alan ilk Azərbaycan qadını Şövkət Məmmədova olmuşdur. O, Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Milanda musiqi üzrə ali təhsil almışdır. Bundan əlavə, qızların təhsilinə önəm verən, onların təhsil almaqlarına kifayət qədər dəstək olan maarifpərvər qadınlarımızdan biri Mina xanım Talışinskaya olmuşdur. Musiqi təhsili almış ilk pianoçu qadınlardan biri də Nəzirə Yaqubova olmuşdur (25).

Azərbaycanın maarifçilik hərəkatının ilk və görkəmli qadın şəxsiyyətlərindən biri də Hənifə Məlikova olmuşdur. O “Əkinçi” qəzeti ilə Azərbaycan mətbuatının banisi olmuş ziyalı şəxsiyyət Həsən bəy Zərdabinin həyat yoldaşı olmuşdur. Hər ikisinin Azərbaycan cəmiyyətində qadınların rolunun güclənməsi ilə bağlı önəmli

fəaliyyətləri olmuşdur. Hənifə xanım 1908-ci ildə qurulan ilk qadın xeyriyyə cəmiyyətinin rəhbəri və Bakı Qızlar məktəbinin direktoru olmuşdur.

Naşir, yazıçı Azərbaycan qadını Şəfiqə Əfəndizadə Bakı Qızlar məktəbinin ilk müəllimlərindən biri olmuşdur. O, qadın hüquqları, qadın azadlığı və qadınların təhsili üçün mübarizə aparanlardan biri idi, eyni zamanda da Qafqazda və Rusiyadakı qadınlarla bağlı məsələlər üzrə nümayəndə idi.

Molla Nəsrəddin satirik jurnalının banisi olan Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə Cavaşir də maarifçilik dövrünün aktivistlərindən biri idi. Onun gördüyü xeyriyyəçilik işlərindən ən önəmlisi tibb mərkəzi açmaq və qadın azadlığı yolunda çoxlu təşviqatlar aparmaq idi. Bu mövzuda Molla Nəsrəddin jurnalında bir neçə məqalə də çap etmişdir. O gələcək nəsillər üçün öz fikirlərində Azərbaycan cəmiyyətinin ilk müstəqillik dövrünə aid olan çox maraqlı xatirələr əks etdirmişdir (32).

Cəlil Məmmədquluzadə cəmiyyətin inkişafı, qoyulmuş hədəflərə çatılması üçün qadınlarla kişilərin hüquqi bərabərliklərini vacib sayır və qeyd edirdi ki, oğlan uşaqlarına verilən təhsil, xüsusilə əgər bu xaricdə təhsil idisə, müəyyən peşəyə yiyələnmək onlar üçün vacib olduğu qədər qızlar üçün də vacib olmalı, onlar da xaricdə oxumalıdırlar.

Ədibə görə, "oğlanlar oxusa, qızlar savadsız qalsa, onda onlar evlənəndə bir-birini başa düşməzlər. Ona görə gərək oğlanlarımızı Avropa dərsinə göndərəndə qızlarımızıda qoyaq dərsə ki, heç olmasa Avropa elmindən, tərbiyəsindən barı yarımçıq da olsa, bir az oxusunlar və öyrənsinlər" ( 23, s. 246-247).

Flora Xəlilzadənin sözlərinə görə, "Xalq Cümhuriyyətinin 23 aylıq hakimiyyəti dövründə də qadınların təhsilinə diqqət verilirdi.Təəssüf ki, Sovet Rusiyasının Azərbaycanı işğal etməsi ilə əlaqədar baş alıb gedən tuthatutlar, repressiyalar bu

ziyalıların qətli, sürgünü ilə nəticələndi.Təzyiqlərdən, təqiblərdən qurtulmuşlar isə dünyanın müxtəlif ölkələrinə səpələndilər.Biz kökümüzdən üzülərək suya salınmış şitil kimi böyüdük.Bizə elə gəldi ki, Azərbaycan qadınına azadlığı və təhsili ancaq sovet hökuməti verib" (14).

Cəlil Məmmədquluzadə öz məqalələrindən birində belə yazmışdır: "Azad edəndən sonra azad Şərq qadınını tərbiyə etmək, ona həqiqi yol göstərmək, öz vəzifəsini bildirmək, qadınlıq şərtlərini anlatmaq, analıq borcunu dərs vermək, övlad tərbiyəsinin nə olduğunu təlim etmək, ta ki, bəxti qara Şərq qadını gözünü açıb çıxsın Şura əsrimizin geniş meydanına və cürətlə desin: mənim də bu dünyada yaşamağa haqqım var! Çünki indi dəxi mən azad Şərq qadınıyam!" (23, s. 550).

Azərbaycan qadınının Sovet çevrilişindən sonrakı vəziyyəti getdikcə yaxşılaşmağa başlamışdı. Məşhur yazıçılarımızın əsərlərində bu aydın şəkildə əks olunur. Xüsusilə də, Cəfər Cabbarlının "Sevil" və " Almaz" əsərlərində qadın ayağa qalxmağa çağırılır və bu əsərlərin həmin dövrdəki cəmiyyətə güclü təsiri olur.

Azərbaycan dramaturgiyasında sosial realizmin banisi sayılan Cəfər Cabbarlının "Sevil" pyesində o, öz əsərinin baş qəhrəmanı olan Sevil obrazını Azərbaycan qadınının yüksəliş yolunda təsvir edir.

Əsərdə Sevil evdar və təhsilsiz qadın kimi təsvir edilsə də, sonradan həyat yoldaşından aldığı xəyanət zərbəsi ilə bütün çətinliklərə baxmayaraq, təhsil almış və çalışan, heç kimə boyun əyməyən bir qadın kimi göstərilir. İlk mərhələdə həyat yoldaşı Balaş onun savadsızlığından savayı onu saymır, hörmət etməsə də, sonradan onun ayaqlarına qapanır. Bu əsər birbaşa olaraq, Azərbaycan qadının

təhsilsiz olarkən də, taleyini özü yazarkən də, hansı çətinliklərlə üzləşdiyini göstərir və hər bir qadına, cəmiyyətə təhsilin vacibliyini aşılayır. (10)

"Almaz" əsəri 1928-ci ildə yazılıb. Azərbaycan müsəlman qadınlarını üzə çıxarmaq məqsədli idi. Əsərdəki Almaz baş rolu sekulyarist ideologiyaya əsaslanır.Almaz təklif etmişdir ki, kənd məscidi qadın mərkəzinə çevrilməlidir. O düşünürdüki, onun missiyası təkcə təhsil vermək deyil, həm də onlara qadın pozisiyasını ötürmək, onları daha sağlam olmağa çağırmaq, kənddə yeni ideologiyaya həvəsləndirmək, sovet rəsmilərinin yaratdığı adətlərə və inamlara qarşı idi mübarizəsi. Amma əsas vurğulanan hissə qadınların mübarizəsi və dəyişimi ilə əlaqədar idi. 1930-cu ildə Azərbaycanın uzaq dağ kəndində işləməyə gələn gənc müəllimə, idealist təfəkkürdə olan Almaz burada quruluşun inkişafı və möhkəmləndirilməsiyolunda qarşıya çıxan əngəllər və çətinliklərlə qarşılaşır. Kənddə eyni zamanda kollektivləşmə ilə əlaqədar sinfi mübarizə gedir. Belə bir təzadlı və çətin vaxtda kənddə fəaliyyətə başlayan, bir sıra mürəkkəb məsələlərlə üz-üzə qalan gənc müəllimənin keşməkeşli həyat yolu filmin əsas süjet xəttini təşkil edir. (9)

Sovet dövrü Azərbaycan üçün bir növ çiçəklənmə dövrü idi. Bu dövrə təsadüf edən teatrların, muzeylərin açılması, məktəblərin, tədris müəssisələrinin tikilməsi şuraların, təşkilatların yaradılması, eyni zamanda qadınların cəmiyyətin fəal üzvlərinə çevrilməsi üçün edilən çoxlu cəhdlər xalqın iqtisadi və sosial inkişafına çox böyük təsir etmişdir.

V.İ.Lenin kommunizm ideologiyasının insanlara ötürülməsinə çalışırdı və mədəni, sosial inkişafın cəmiyyətdə bərqərar olması üçün dinlə bağlı ideologiyaları onlardan uzaqlaşdırırdı. Bu səbəbdən, məscidlərin sayı günü-gündən azalırdı və əvəzinə savadsızlıqla bağlı etirazlar cərəyanları yaranmağa başlamışdı. Həmin vaxt üçün isə Azərbaycan xalqının savadlılıq dərəcəsi çox

aşağı idi. “1923-cü ildə Respublika hökuməti yanında savadsızlıqla mübarizə üzrə xüsusi Komitə yaradıldı. Həyata keçirilən tədbirlər nəticəsində 1926-cı ilə artıq 25%, 1933-cü ilə isə Azərbaycan əhalisinin yarısından bir az çoxu savadlı kateqoriyasına aid olundu. 30-cu illərin ortalarında savadsızlığın ləğvi ümumxalq hərəkatı elan edildi. 1933- cü ildə «Tam savadlılıq istiqrazı» buraxıldı” (18)

Əlavə olaraq, Azərbaycandakı məktəb binalarının sayı artırıldı, məktəblilərin təhsilə cəlb olunması gücləndirildi. Ali təhsil ocaqlarında bir sıra pedaqoji və texniki elm - ixtisaslarından məzun olanlar var idi. Həmin dövrdə təlim metodları, məktəblərdəki struktur dəyişdirildi. Bütün diqqət mədəni inqilaba, yenilənməyə doğru idi. Burada təbii ki, qadın əməyi, qadın təhsili də çox önəmli faktor idi.

“Sovet dövrünün başlanğıcında ideologiyalaşmış qadın hərəkatı başqa respublikalardan əvvəl Rusiyada başlandı. 30-40-cı illərdə Azərbaycanın yeni proletar ziyalılarının 1-ci nəsli yaranmağa başlamışdı. Azərbaycan ziyalılarının XVIII əsrin sonlarında – XIX əsrin əvvəllərində başlanan və 1920-ci ilə, Sovet Azərbaycanı yaradılanadək inkişaf edən təşəkkül ənənələri qırıldı. Azərbaycanın Rusiyada, xaricdə gözəl təhsil almış və öz xalqı,ölkəsi üçün çox işlər görmüş görkəmli ərləri, parlaq qadınları – burjuaziya ideologiyası içində meydana gəlmiş mütəfəkkirlər, mesenatlar – ziyalılar pleyadası bolşeviklər tərəfindən əks inqilabi ünsür kimi qəbul olunurdu. Onların tən yarısı hələ 20-ci illərin ikinci yarısında güllələndi, repressiya qurbanı edildi” (18)

Bu proses Azərbaycan mədəni irsinə, təəssüflər olsun ki, çox böyük ziyan vurdu. Lakin eyni vaxtda ilk Şərq qadının öz çadrasını başından ataraq sosial həyata qatılması, iş həyatında özünü doğrultması və cəmiyyət tərəfindən bərabərhüquqlu bir şəxsiyyət kimi tanınması digər Şərq ölkələrinə bir növ nümunə idi. Qadın sənətkarlar, bəstəkarlar, artistlər, elm adamlarının sayı dövrün imkanlarına görə əvvəlki ilə müqayisə edilməyəcək dərəcədə artmışdı. “Ali təhsil də getdikcə

inkişaf etməyə başladı. Azərbaycan dövlət universitetində tibb, tarix, fizika-riyaziyyat, şərqşünaslıq, pedaqoji, hüquq fakültələri fəaliyyət göstərirdi. Azərbaycan Politexnik İnstitutu açılmışdı. Bütün ali məktəblərdə kişilərlə yanaşı qadınlar da ali təhsil alırdı. Qadın məktəbəqədər tərbiyə institutu (sonralar Azərbaycan Dövlət pedaqoji institutu ilə birləşdi), Şərqdə ilk Konservatoriya, qadınların da təhsil aldığı Ali rəssamlıq məktəbi yaradıldı" (18)

1922-ci ildə Arxeologiya cəmiyyəti, 1928-ci ildən etibarən "Azərbaycanın öyrənilməsi və tədqiqi cəmiyyəti" , 1929-cu ildə Dövlət elmi tədqiqat institutu yaradılmışdı ki, burada təkcə kişilərin deyil, qadınların da əhəmiyyəti həm keyfiyyətcə, həm də kəmiyyətcə önəm daşıyırdı. Bu illər ərzində qadınların hüquq və imkanlarının artırılması ilə bağlı 20-dən artıq qərar qəbul olunmuş, bir sıra islahatlar aparılmışdı. Həmin dövr üçün qadının vəzifə və funksiyaları dəyişmiş və artmışdı. Qadınlar həm işçi, həm ana və həm də ev sahibəsi rolunu oynamalı idi.

"Elmin feminləşməsinin ikinci «dalğa»sı 1960-cı illərdə başlamışdı və elmin güclü ekstensiv inkişafı ilə üst-üstə düşmüşdü" (40, səh. 5). Bu illərdə qadınların müxtəlif sahələrdə çalışması və ixtisaslaşması kütləviləşmişdi. Sovet Sosialist Respublikası üçün də uyğun vəziyyət elə bu idi - daha çox əmək qabiliyyətli insan və daha çox işçi. Təbii ki, qadınların çoxluq təşkil etdiyi əsas sahələrdən biri də elm idi. Elmi- tədqiqat işləri ilə məşğul olan qadınlar üçün SSR dövründə kifayət qədər əmək haqqı və iş saatının uyğunluğu vacib faktor idi.

"Hazırkı sosial-iqtisadi vəziyyət alimləri elmi işi davam etdirmək, həm də minimum normal həyat səviyyəsini təmin etmək üçün hansısa yeni, qeyri-ənənəvi yollar axtarmağa məcbur edir. Axtarış əksər hallarda iki varianta gətirib çıxarır: sənəti saxlayaraq ölkəni dəyişmək, yaxud da vətəndə qalaraq sənəti dəyişmək. Son illərdə daxili və xarici «ağıl axını» – emiqrasiya və miqrasiya fəallaşmışdır"

(40). Bu o deməkdir ki, ölkədə elmlə məşğul olan qadın sayının artmasına səbəb yenə də özünün ona təlqin edilən qadınlıq funksiyalarını yerinə yetirməyə instinktiv olaraq, məcbur olmasıdır.

Qadın sayının elm sahələrində kişi sayı ilə statistik olaraq ortaqlığı onun biznes kimi pul gətirən sahələrdən daha çox, ölkədə işi nisbətən az və yüngül olan elmi-tədqiqat sahələrinə (eyni zamanda minimum maaşa qane olması ilə əlaqəli) yönəlməsinə və ölkədə özünün bütün qadınlıq funksiyalarını bucür yerinə yetirə bilməsinə görədir. Çünki onu təşviq edən, altından çıxa bilmədiyi adəti üzrə mənəvi təzyiq ona ölkə sərhədləri içində ailəsinin də faizlə və vicdanla daha çox məsuliyyətini öz üzərinə götürməsinə təhrik edir, evdən kənarda olma saatlarının avtomatik limitlənməsinə və nəsil artırma funksiyasının yerinə yetirilməsinin məcburluğuna gətirib çıxarır.

## 1.3 Müstəqil Azərbaycan Respublikasında təhsil və Gender məsələləri

21-ci əsrin əvvəllərindən bəri qadınların cəmiyyətdə və təhsildəki rolunun gücləndirilməsi üçün önəmli addımlar atılmağa başlamışdır. Buna baxmayaraq , Qadınların siyasətdə və iqtisadiyyatda rolu hələ də həmkarları ilə nisbətdə çox aşağıdır, buna səbəb qızların təhsilinin əksikliyidir. Təhsil gender bərabərliyi və qadınların rolunun gücləndirilməsi üçün ən əsas prioritetdir , amma bugün dünyada milyonlarla qadının təhsil əlçatmaz olaraq qalır.

2000-ci il statistikasına görə elm sahəsində fərqlər belədir: akademik kişilərin sayı 36 nəfər, qadın 1 nəfər; akademiyanm müxbir üzvünün 57 nəfəri kişi olduğu halda, 3 nəfəri qadın; elmlər doktoru 1375 nəfər kişi, 175 nəfər qadın ; elmlər namizədi 5875 nəfər kışi, 2625 nəfər qadındır. Ali təhsil və tədqiqat müəsisələrində qadınlar texniki və elmi sahələrdən çox, əsasən humanitar və ədəbi yaradıcılıq sahələrində məşğuldurlar. Qadınlar əhalinin əksəriyyətini təşkil etdiyi kimi qadın müəllimlərin də sayı kişilərinkindən çoxdur.

"2011-ci ilin sonuna səhiyyə və sosial xidmətlər sektorunda qadınlar 77,6%, kişilər isə 22,4% təşkil edirdi. 2005-ci ildə Azərbaycan Milli İnsan İnkişafı Hesabatı üçün keçirilmiş sorğu nəticələrinə əsasən respondentlərin əksəriyyəti həkimliyi qadınlar üçün ən münasib ixtisaslardan biri sayır. Lakin ümumi səhiyyə sistemində azlıq təşkil edən kişi işçilər rəhbər vəzifələrdə çoxluq təşkil edirdi" (13, səh. 269).

"Azərbaycanda 2012-ci ildə qadınlar əmək qüvvəsinin 48.4% - ni təşkil edir. 2012-ci ilə qadınlar üçün orta maaş 243.6 AZN olmuş və bu kişilərin orta aylıq əmək haqqının (AZN 519.8) yalnız 46.9%-ni təşkil edir. Qadınlar həmçinin təhsil (71.7% qadın), səhiyyə və sosial xidmət (2012 ildə 78.1%) kimi aşağı-maaşlı

dövlət sektoru fəaliyyətlərində daha çox çalışırlar. Qeydiyyatdan keçən müəssisələrin yalnız 10.8%-i qadınların adınadır ki, bu Gürcüstan (40.8%) kimi qonşu ölkə ilə müqayisədə belə aşağıdır.“ (16)

Qadınların təhsilsizliyi təkcə onların öz həyatlarına mənfi təsir göstərmir, həmçinin, uşaqlarının və ölkənin iqtisadi inkişafına da ziyan vurur.

Bütün vətəndaşları təhsilli olan, bütün təhsil müəssisələri savadlı və dünyadakı yeniliklərlə ayaqlaşa bilən insan yetişdirən bir ölkə dünyanın digər ölkələri ilə müqayisəolunmaz gücə malikdir və bu güc onu həm siyasi, həm iqtisadi və eyni zamanda sosial cəhətdən təmin edir. Təhsilə gətirilən problemin özəyinin cinsi-bərabərsizlik olduğu bilinən və qadınların təhsili ilə bağlı problemlərin yaşandığı bir cəmiyyətdə isə güc zəifləyir. Bu o deməkdir ki, aktual olan problemi həll edib dövləti gücləndirmək üçün təhsilin potensialının qadınlar istiqamətində, daha dəqiq desək təhsil pillələrində olan cinsi-bərabərsizlik məsələləri yönündə istifadə edilməsi daha doğrudur.

Aysel Abdullazadənin sözlərinə görə, “Təhsil sistemində qadın-kişi bərabərliyini təmin etmək, hər şeydən əvvəl, təməl bir anlayış dəyişikliyini tələb etməkdədir. Qadınlar arasında oxuyub-yaza bilməməyi tamamilə ortadan qaldırmaq, peşə təhsilinə, elm və texnologiyaya çatmalarını təmin etmək və təhsilin azad potensialını hər iki cinsin lehinə istifadə etmək lazımdır”. (2)

Təhsili bərabər imkanlarla hər iki cins arasında təmin etmək nə deməkdir? Bu təhsilin siyasətinin, strategiyasının, təhsil işçilərinin düşüncəsinin, fənn kurrikulumlarının, məktəblərdəki daxili mühitin vəziyyətə uyğunluğundan başqa, həmin cəmiyyətə məxsus mədəni irsimizdən, adət-ənənələrimizdən, dəyərlərimizin tərifindən gələn stereotiplərin köklü formada aradan qaldırılması

və daha yaşlı ailə üzvlərimizin də bu mövzuda həssaslığının artırılması kimi nəzərdə tutulur.

Qadınların oxumasını nə qədər çox hüquqla təsdiq etsək də, bu gün bir çox kənd və qəsəbələrimizdə orta təhsilini bitirməmiş qızlar və analar var. Ali təhsil bir məcburiyyət olmasa da, ali savadlı və orta savadlı insanlar cəmiyyətimizdə çox zaman fərqlənir. Xüsusilə də əgər bu insan bir qadındırsa, cəmiyyətin stereotipləri onun həyatını idarə etməsində daha çox ağırlıq edir və ali təhsil mühitindən kənar qalmaqla daim yenilənən dövrümüzlə ayaqlaşmaqda çətinlik çəkir. Bir çox qadınlar nəinki ayaqlaşmağa cəhd etmir, hətta həyat yoldaşları tərəfindən idarə olunmağı üstün tutaraq, şəxsi istək və arzularını qurban verirlər. Bu tədqiqat hələ də problem kimi qalan bu məsələni bir az daha aktuallaşdırır və keçmişdən bugünə olan dəyişiklərimizi ortaya qoyaraq, hələ nə qədər dəyişməli olduğumuzu nümayiş etdirir.

Bu mövzuda dövlətimiz və dövlətimizə aid olan bir çox qurumlar - Ailə, Qadın və Uşaq Komitəsi başda olmaqla, çoxlu tədbirlər, layihələr həyata keçirir. Lakin bizə bunlar kifayət edirmi? Cəmiyyətimiz hələ də ali təhsilsiz, hətta orta təhsilsiz qadınlarla üz-üzədir, həmin qadınlar ki, erkən evliliklərə, işsizliyə, erkən yaşda analığa, savadsızlığa, məhkumluğa, zorakılığa, ən başlıcası ölümə qurban gedirlər. O qadınlar bir kişinin verdiyi quru çörəyə möhtac qalır, öz ailəsinin ona etdiyi "sən bu evdən ağ gəlinliklə çıxırsan, yalnız ağ kəfənlə qayıda bilərsən" psixoloji təzyiqi altında ərə gedir, onun atası ona ev işlərinin və namusun önəmli olduğunu, bu səbəbdən də yeniyetməlik yaşına kimi daha çox diqqəti məişət məsələlərinə yönəltməli olduğunu, özü ilə bağlı hər şeyin ilk öncə atadan, evlilikdən sonra ərdən icazəsini almalı olduğunu, təhsilin vacibsizliyini və ya əgər vacibdirsə, bunun yalnız öz övladlarının tərbiyə və təhsilində rolu olduğunu azyaşlı vaxtından bəri izah edir, beyninə həkk edir. Bu proses əsrlərdir davam etmişdir və hazırda da gələcək nəsillərə ötürülür. Nəticəni dəyişmək, aradakı

əsrlərin fərqini bağlamaq üçün qadınlar daha yuxarı təhsil pillələrinə irəliləməli, daha yüksək vəzifələrə can atmalı, istər sosial, istər iqtisadi və ya siyasi cəhətdən onlar üçün olduğundan artıq şərait yaradılmalıdır. Çünki bu cəmiyyətin qadına fiziki zəifliyinə görə bəxş etdiyi güzəşt deyil, bu qadının əsrlərdir "ikinci növ insan" adı altından çıxmaq haqqıdır, bu qadının insanlıq haqqıdır!

# II FƏSİL. SOSİAL AMİLLƏRİN GENDER ASPEKTİNDƏN TƏHSİLƏ TƏSİRİ

Təhsil və təhsil mühitində yaranan gender məsələləri çox vaxt birbaşa olaraq, təhsil müəssisələrindən qaynaqlanmır, yəni kənar təsirlər də təhsil prosesinə təsir edərək stereotiplərin yaranmasına gətirib çıxarır. Gender stereotipləri üç əsas sosial mühitdə özünü biruzə verir:

- Təhsil mühiti
- Ailə mühiti
- İş mühiti.

## 2.1 Gender stereotiplərinin təhsil mühitində formalaşması

Təhsil mühiti şagirdlərin, tələbələrin öz yaşıdları ilə birlikdə öyrəndiyi, formalaşdığı sosial amillərdən biridir. Yaşıdların bir-biri ilə əlaqələri zamanı tələbələr (şagirdlər) bir çox yeni məlumatlarla qarşılaşır, bu məlumatların əksəriyyəti daha çox yeniyetməlik dövrlərində təhsil alan şagirdlərin gələcək həyatında mühüm əhəmiyyət kəsb edir. "Ümumiyyətlə isə, yaş artdıqca cins-rol eyniliyinin məzmunu da dəyişir. Məsələn,

- İkiyaşlı uşaq öz cinsini qavrayır, amma hələ də atributasiyanı əsaslandırmağı bacarmır.
- 3-4 yaşlarında uşaq artıq ətrafdakıların cinsini müəyyənləşdirməyi bacarır, amma çox zaman onu təsadüfi xarici əlamətlərlə, məsələn, geyimlə, saçla eyniləşdirir.
- 6-7 yaşlarında uşaq cinsi mənsubiyyətin dəyişməzliyini tam dərk edir və bu, davranışda cinsi differensiasiyanın güclənməsi ilə üst-üstə düşür.

- Yeniyetmə yaşında gender rolunun məzmunu və ifası barədə təsəvvürlər dəqiqləşir və möhkəmlənir. “ (4)

Yeniyetməlik insan həyatında təkcə keçid dövrü deyil, eyni zamanda şəxsiyyətin inkişafında çox mühüm – açar rolunu oynayır. Bu yaş dövründə uşaqlar məktəbdə başverənləri anlayır, analiz edir, beyin filtrindən keçirirlər, yaşıdları ilə aralarında yetişkin insanlarda olduğu kimi həqiqi və qalıcı münasibətlər formalaşır və çalışırlar ki, ətrafında olduqları insanlar tərəfindən bəyənilsinlər. Bu zaman bəzi anlaşılmazlıqlar meydana gəlir. Belə ki, bəzi fənnlər şagirdlər tərəfindən qadın üçün, bəziləri isə kişi üçün olan fənnlər kimi qiymətləndirilir. Bu da onlar arasında bir- birilərini “qız kimi” ya da “kişi kimi” adlandırmalarına səbəb olur.

Misal üçün, əgər bir oğlan musiqi dərsində çox yaxşıdırsa, o, “qız kimi”, bir qız fizika dərsində yaxşıdırsa, o, “oğlan kimi” adlandırıla bilir. Yaşıdlar gender stereotiplərindən lazımınca istifadə edərək, bir-birilərinin narahat hiss etmələrinə səbəb olur, onların gələcək ixtisas seçimlərinə belə təsir edə bilirlər. (41)

Bundan əlavə, “qız(qadın) kimi” və “oğlan(kişi) kimi” anlayışları birbaşa olaraq ailədən də qaynaqlanır. Ailədə valideynlərin verdiyi tərbiyə uşaqların beynində sistemlənmiş və ikiyə ayrılmış obraz yaradaraq, uşaqların gələcək bütün imkan və planlarında stereotiplərlə hərəkət etməsinə səbəb olur. Gələcəyin işçiləri olan bu uşaqlar istər öz karyera seçimlərində, istərsə də iş mühitindəki yerlərini məhz bu stereotiplərə görə edirlər və bu da bugünkü olduğumuz iş mühitindəki ciddi qeyri-bərabərlik vəziyyətinə gətirib çıxarır.

Bu mövzu ilə bağlı apardığım araşdırma zamanı online, sosial şəbəkələr üzərindən 141-i qadın, 35-i kişi cinsinin nümayəndəsi olmaqla, ümumilikdə 176 nəfərin iştirak etdiyi test üsulu və kəmiyyət xarakterli sorğu keçirmişəm. Sorğuda iştirak edənlərin 61%-i 18-29 yaş arası gənc nəslin nümayəndələri, 31%-i orta

nəslin nümayəndələri, 8% isə digər yaş qruplarından olmuşdur. Müəyyən olmuşdur ki, "Qadının qadın, kişinin kişi sənəti var" tipli stereotiplə 16% qadınş, 9% kişi tamamilə razılaşmış, onlardan 31% qadın və 49% kişi qismən razılaşmış, 36% qadın və 40% kişi isə qismən razılaşmamışdır. Tamamilə bu fikirlə razı olmayan isə sadəcə 23% qadın və 26% kişidir.

Göründüyü kimi, gənc nəslin çoxluq təşkil etdiyi bu sorğuda çoxluq insanların cins bölgüsü ilə gətirilmiş olduğu peşə istiqamətinin limitlənməsinə də məruz qalır. Təbii ki, bu ağırlıq daha çox qadınların üzərinə düşür. Deməli, indiki zamanda hələ də, kişilərin və qadınların dominant olduqları ixtisas sahələri vardır. Məsələn kişilər elm, tikinti, mühəndislik sahələrində, qadınlar incəsənət, humanitar və qayğı göstərə biləcəkləri (müəllimlik, məktəbəqədər təhsil və s.) sahələrdə dominantdırlar. Bunun səbəbi isə cəmiyyətimizdə mədəniyyətin kişi və ya qadın mövzuları, ixtisasları kimi ayrı-seçkiliyə səbəb olan güclü təsiredici stereotipləridir. Qadınlar ümumiyyətlə, kişi yönümlü sahələrdə xoş qarşılanmır və ya mədəni görünmürlər. (35)

Buna səbəb, müəllimlərin və valideynlərin ixtisas seçimi ilə əlaqədar şagirdlərə ötürdükləri stereotiplər və bu stereotiplərə əsasən ixtisaslar seçməyə təşviq etmələridir. Xüsusilə valideynlərin övladlarının ixtisas seçimlərindəki təzyiqi danılmazdır. Araşdırmaya görə, Azərbaycanda 65 faiz ailə öz övladına ixtisas seçimində nələrisə təlqin etməyə çalışır. (22)

Təhsilə cəlb olunma ilə əlaqədar olan statistikalarda qadınlarla kişilər arasında olan bərabərlik göstəriciləri kifayət etmir. Məktəblərin, eləcə də təlim metodlarının məzmunları cəmiyyətdəki gender rollarına məxsus olan stereotipləri istər gizli, istərsə də açıq formada şagirdlərə ötürür. Bu mesajlar uşaqların ənənəvi gender stereotiplərinə uyğun davranmalarına, qadın və kişilərə məxsus nailiyyətlərin, bacarıqların etalonlarını və sərhədlərini yaratmalarına imkan

yaradır. Məktəb öz şagirdlərini standart öyrənmə vəziyyətlərinə görə, davranış qaydaları, dərslik vəsaitləri və müəllimlərin qeyri-formal tədris üsulları ilə formalaşdırır.

Dərs mühitində şagirdlər-tələbələr arasında baş verən gender fərqlilikləri, onların aktuallığını qoruyub saxlaması stereotiplərdən asılıdır. Bu stereotipləri məktəb mühitindən bəri yaradan əsas amillər isə aşağıdakı kimi ayırd edilə bilər :

- Şagird və tələbələrin cinsləri ilə əlaqədar olan stereotipli zarafatlar
- Dərsliklər və digər əyani vəsaitlərin içindəkilər
- Dərs prosesi zamanı olan mövzular və müzakirələr
- Müəllimlərin cinsi ayrı-seçkiliklə bağlı, eyni zamanda qeyri-etik davranışları

Araşdırmamızda stereotiplərin dərs mühitində daha çox haradan qaynaqlandığını öyrənmək üçün verilən suala əsasən, respondentlərin ən böyük çoxluğu – yəni, 37%-i dərs mühitində müəllimlərin onlara qarşı cinsi ayrı-seçkilik etdiyini, belə davranışlar sərgilədiyini və ya danışarkən bu cür stereotipli cümlələr qurmuş olduqlarını bildirmişdirlər. Onlardan 28%-i dərsdə müzakirə olunan mövzular zamanı, 22%-i aid olduqları cinsə(kişi və yaxud qadın olduqlarına dair) görə edilmiş alçaldıcı zarafatlardan və 19%-i isə dərslik vəsaitlərində müşahidə etdikləri nümunələrdən ötrü narahatlıq yaşadıqlarını ifadə etmişlər. Buradan belə nəticə çıxarmaq olar ki, müəllimlər yaxud təhsilverənlər istər şüurlu, istərsə də fərqində olmadan göstərdiyi davranış və danışıq tərzinə görə ailədən sonra bu cür neqativ stereotiplərin möhkəmlənməsinə şərait yaradırlar. Buna görə də, ailələrin maarifləndirilməsi ilə bağlı olan tədbirlərdən əlavə, təhsilverənlərin bu mövzunu öyrənməsi və qəbul etməsi və ən əsası davranışda cinsi bərabərsizliyi ədalətli və milli adət-ənənələrə sadiq qalacaq şəkildə qorumağa çalışmağı üçün çalışılmalıdır. Müəllim ilk növbədə, təbliğ edən olmalıdır.

2019-cu il 4 aprel tarixində olan 14 yaşlı məktəbli, yeniyetmə olan Elina Hacıyevanın intihar səbəblərinə baxdıqda, onun məktəbdə məruz qaldığı zorakılıq, psixoloji şiddət, bu səbəblərdən özünə inamsızlığının artmasını və yaşıdlarının onu ələ salması, incitməsi kimi məsələlərini görərik. Təkcə 2015-2019 – cu illər ərzində Azərbaycan ümumtəhsil məktəblərində 10 belə intihar hadisəsi baş vermişdir. Elinanın məktəb mühitində intihar etmə cəhdi məktəbin, müəllimlərinin, məktəb psixoloqunun və məktəb direktorunun məsuliyyətsizliyi ucbatından olmuşdur. Təbii ki, burada ailə faktorunu önəmsəməyə bilmərik. Bu o deməkdir ki, ailə - məktəb münasibətlərinin möhkəm olmasında təhsil sistemimiz hələ də çox zəifdir. (7)

Ümumiyyətlə, qadınların texniki və texnoloji elm sahələrində daha az professionallaşması, bu sahələrə daha az istiqamətlənməsi son illərin ən aktual və vurğulanan məsələlərindəndir. Bu mövzunun problem kimi aradan qalxması üçün ilk öncə sırf bu məsələyə fokuslanan, qadın və kişilərin abituriyent olduğu və orta və ya ali məktəbi bitirdikdən sonra yönləndikləri iş sahələrinə diqqət yetirən və bu fenomeni onlara izah edib doğru yol göstərən akademik işçilər lazımdır. (31)

Bundan əlavə, gender fərqlilikləri müəyyən ölçülərə görə - yaş qruplarına, insanların yaşadıqları ərazilərə və adətlərə görə dəyişdiyi üçün bu haqda daha dəqiq və ya dünyəvi nəticə çıxarmaq çətinləşir. Misal üçün, cinsiyyət fərqinin böyüklüyü tələbənin qabiliyyət səviyyəsi, yaşadığı mühitin dəyərləri, məktəbin yerləşdiyi ərazi, tələbənin yaşadığı sosial və maddi durumu kimi bir çox şeydən asılıdır.

Dərslərdə şagirdlərin cinslər baxımından aktivlikləri və nailiyyətlərinə baxıldıqda, müəyyən faktorların varlığı və onların nə dərəcədə bu fərqliliklərinə təsir etdiklərini də nəzərə almaq lazımdır. Məsələn, yalnız qız və ya yalnız

oğlanların oxuduqları məktəblər, qarışıq məktəblər, qadın - kişi müəllimlər, tələbə və ya müəllim mərkəzli məktəb sistemləri, kurrikulum sistemi və s.

Əlavə olaraq bəzi faktlar testlərin, verilən tapşırıqların tipləri ilə də bağlı tələbələrin nailiyyətlərində boşluqlar ortaya çıxardığını göstərir. Misal üçün, texniki fənnlərlə əlaqədar olan tapşırıqlarda ortalama kişilər daha yaxşı nəticə göstərdiyi halda, inşa, sərbəst yazı tipli tapşırıqlarda qadınların daha yaxşı olduğu görülmüşdür. Başqa sözlə desək, oğlanların oyunlar, idman növləri və bunun kimi digər fəaliyyətlərlə bağlı testlərdə daha yaxşı olduğu bilinməkdədir. (42)

İstər sinfin içində, istərsə də sinifdən kənar oğlan uşaqlarının hər zaman elm və texniki fənlərlə iç - içə olmağa daha böyük şansları vardır. Beynəlxalq araşdırmalar göstərir ki, sinif daxilində eyni dərslərdə iştirak etmələrinə baxmayaraq, qızlar və oğlanların aldıqları təhsil bir-birindən çox fərqlənir. Bu da qızların özlərinə inamsızlığını artırır. Belə ki, müəllimin fərdlərə davranış fərqliliyinin olması nəticəsində qızlarda yaranan inamsızlıq onların elm sahələrinə daha az həvəsli olmasına, ali təhsil seçimi edərkən və ya iş seçərkən daha az riskə getməsinə və daha az xəyal qurmasına gətirib çıxarır. Bundan əlavə, yetişkinlər arasında, eləcə də müəllimlərin qız tələbələrinin bacarıqlarına qarşı daha az inamlı olması, qızların akademik özgüvənlərini, özlərinə inamlarını böyüdükcə, inkişaf etdikcə azaldır. (38)

Kütlə psixologiyası əsasında duran gender təhsil prosesinin bütün pillələrində öyrədici və istiqamətləndirici kateqoriya kimi qarşımıza çıxır. Ümumtəhsil məktəbləri ilə qadın və kişi ifadələri arasında güclü bir bağ vardır və məktəbin nizamı, məktəb geyimləri, yerləşdiyi ərazi, dərsliklərin metodologiyası və s. bunu dəstəkləyir.

Misal üçün, eyni məktəbdə qızlar və oğlanlar fərqli davranışlar sərgiləyir; şagird-tələbələrin oyun sahələri və vasitələri, dərslərdə oturma şəkilləri, üzərilərinə götürdükləri məsuliyyətlər ümumilikdə gender əsaslı səciyyələnir. (34)

Məktəb mühitinin aparıcı rolu olan müəllimlər dərsliklərdəki biliklərin ötürərkən, ana dilinindən istifadə edərkən, gözləntilərin, davranışların, dəyərlər sisteminin üzərindən uşaqların gender kodlarının formalaşmasında açar rolunu oynayır.

Araşdırmalar, müəllimlərin gender stereotiplərinin daşıyıcısı olduğunu, tələbə-şagirdlərlə qurduqları əlaqələrdə(şüurlu və ya şüursuz şəkildə) bu stereotiplərdən istifadə etdiklərini göstərir. Bizim araşdırmamızda da göstərildiyi kimi, müəllimlərin davranışları nəinki stereotip yaradır, hətta narahatlıqlara da səbəb olur. Eyni dərslərdə iştirak edən, eyni dərs kitabını oxuyan, eyni müəllimi dinləyən qızlar və oğlanlar fərqli təhsil alırlar. Müəllimlər oğlan tələbələrlə daha çox əlaqə qurur, onlara daha yaxşı suallar verir, daha dəyərli rəylər bildirirlər. Bu prosesdə qızlar sakitcə gözləməyi, oğlanlar isə dərs mühitinin aparıcı faktoru olmağı öyrənirlər. Beləliklə, bir otoritar rejimə mənsub insan yetişir və rol model olan müəllimlər bu məsələnin problematik hal almasına bəzən bilmədən dəstək verirlər.

Gender və təhsil ilə bağlı araşdırmalarda, müəllimin rolu danılmazdır. Uşaqların cinsiyyətə dayanan qəlib düşüncələri və gender fərqliliklərin formalaşmasında müəllimlərin də bir rolu vardır. Uşaqlar məktəbə başladığında artıq məktəb mühitinə kənardan(başqa sosial mühitlərdən və ya ailədən) aldıqları, öyrəndikləri stereotiplərlə gəlirlər. Bu stereotiplər xüsusilə ailədə öyrənilir. Belə olduğu halda, müəllimlər şagirdlərə açıq görüşlü olmağı aşılamalı, onların gender mövzusundakı fikirlərini genişləndirməlidirlər. Müəllimlər məktəbdən əvvəl formalaşmış stereotiplərin aradan qalxması üçün çalışmalı, onları bildikləri ilə kifayətlənməməyə, azad olmağa və özlərini heç bir formada bir-birilərindən fərqli

hiss etməməyə və davranmamağa çağırmalıdırlar. Bu düşüncə ilə yola çıxsaq, müəllimlərin gender mövzusunda tələbələr üzərində düzgün və effektiv dəyişimi, maarifləndirməsi üçün birbaşa olaraq, onların özünün maarifləndirməsinin lazımlılığını və zəruriliyini göstərmiş oluruq.

Gender stereotipləri və bununla əlaqədar yayılmış ümumi fikir və ya inanclar müəllim-tələbə qarşılıqlı əlaqələrində mühüm rol oynayır, lakin nə müəllimlər, nə də şagirdlər bundan xəbərdar deyildirlər.

Müəllimlər dərs keçərkən sinif mühitində çox vaxt açıq-aşkar şəkildə gender ayrı-seçkiliyi etmirlər, lakin tələbələrdən gözləntiləri, istifadə etdikləri tədris metodları və nizam-intizam qaydaları gender kontekstində qərəzli münasibət və davranışları ilə birbaşa bağlıdır. Müəllimlərin kişi və qadın şagirdlərə qarşı davranışındakı fərqlər, onlarla qarşılıqlı əlaqə tərzləri, onlara verilən tapşırıq və vəzifələrdəki fərqlər, ümumiyyətlə, cinslər arasında iyerarxik quruluşu qoruyan patriarxal dünyagörüşü ilə müəyyən edilir. (7)

Çinin Milli Təhsil Elmləri İnstitutunun professoru Charlene Tana görə, müəllimlərin seksist davranışları belədir:

- görünüş və geyim tərzinə müdaxilə
- əks cinslə dostluq zamanı ittiham və təzyiq göstərmək
- sinif müzakirələrində qızların diqqətdənkənar qalması
- qızların suallarının daha az cavablandırılması
- tədris prosesi zamanı şagird-tələbələri gender qruplarına görə ayırmaq
- təmizlik, nəyinsə daşınması vəs. vəzifələrin cinsə görə paylanması. (11)

Dərs prosesinə daha detallı yanaşdıqda, müəllimlərin oğlan şagirdlərə qarşı daha diqqətli olduğunu, xüsusilə riyaziyyat və ya digər tətbiqi elm sahələrində onları daha çox dəstəklədiklərini(Eccles ve Blumenfeld, 1985; Duffy ve ark., 2001; Li,

1999; Smith ve ark., 2007; Stanworth, 1990; Streitmatter, 1994; Tsouroufli, 2002), qızların isə daha çox humanitar elmlərdə və ya musiqidə aktivliyə təşviq olunduğunu görə bilərik(Baç, 1997). (11)

Vəzifə və məsuliyyətlər baxımından, qızlara daha çox təmizlik və otağın səliqəsi ilə əlaqəli işlər, oğlanlara isə dərs vəsaitləri ilə əlaqəli, sinifdə müəllim olmadıqda sinfi idarə etmək kimi işlər tapşırılır. (8)

Müəllimlərin şagird-tələbələrdən gözləntiləri və davranış formaları da gender qəliblərinə əsasən formalaşmışdır. Qızlardan daha çox tərbiyəli, sakit, hörmətli, çalışqan, yardımsevən, itaətkar, qaydalara riayət edən və akademik olaraq bacarıqlı olmaları gözlənilir (Robinson,1992; Renold, 2006). Müəllimlər oğlan tələbələr üçün cəsur, diqqətsiz, davakar, hərəkətli və ağıllı; qızlar üçün nizamlı, sakit, sözəbaxan, emosional, güvənilən və s. kimi sifətlərdən istifadə edirlər (Baç, 1997). Oğlan tələbələrin dərsin təbii axınına müqavimət göstərən "yersiz suallar vermə" və ya "dərsi qarışdırmağa çalışma" kimi xüsusiyyətlərinə qarşı müəllimlər daha tolerant olurlar (Renold, 2006; Robinson,1992; Sadker, 1985). (11)

Müəllimlərin davranışları və qızlara qarşı münasibətləri, hərəkətləri və sözləri qızları müxtəlif sahələrdə ruhdan salır və özünə inamına mənfi təsir göstərir. Bizim ölkədə digər ölkələrə bənzər formada, qızlar oğlanlara nisbətən akademik mühitdə daha müvəffəqiyyətlidir, öyrənmə motivasiyaları daha yüksəkdir. Ancaq sinifdə mübahisəli müzakirə, öz münasibətini açıqca ifadə etmək, şərhlər vermək məsələsinə gələndə tələbə qızları müəllimlər və ya oğlan tələbələr asanlıqla ruhdan sala, onların cəsarətlərini qıra bilər. Bu cəsarət ve özgüvən əksikliyi getdikcə qızların təhsilinin inkişafına və karyera peşə seçimlərinə də neqativ yöndə təsir edir.

Halbuki müəllimlərin, şagirdlərin karyera planlarında və qərarlarında əhəmiyyətli təsirləri olduğu, xüsusilə də kişilərin hakim olduğu iş sahələrini seçən qız şagirdlər üzərində motivasiyaedici və cəsarətləndirici rol oynadıqları məlumdur.

Gender bərabərliyi ölkədəki və ya dünyadakı fürsətlərə, mənbələrə və xidmətlərə əlçatımlığın cinsindən asılı olmayaraq baş tutmasıdır. (21) Bu bərabərlik anlayışının inkişaf etməsi üçün, müəllimlər və ya təlimçilər iki əsas bacarığa sahib olmalıdırlar; gender fərqindəliyi və həssaslığı.

Bu bacarıqlara, cinslər arasındakı fərqlərin öyrənilmiş davranışlara əsaslandığını bilmək, problemlərin və bərabərsizliklərin mövcudluğunu etiraf etmək, onları görünən hala gətirmək və bunu strategiya və digər fəaliyyətlərə daxil etmək kimi anlayışlar daxildir. Belə bir baxış bucağının olması üçün tələb edilən gender maarifləndirməsi, gender mövzusu ilə əlaqəli bilik və bacarıqlar əldə etmək, cari davranışları dəyişdirmək və gender qavramını və həssaslığını yaratmaq məqsədi daşıyan inkişaf fəaliyyətidir.

Qlobal kontekstdə müəllim təhsili proqramlarının ən böyük çatışmazlığı burada yaranır. Hər nə qədər müəllimliyə namizəd olanlar (Erden, 2009), müəllimlər (Allana və arx., 2010; KAWANA, 2009) və müəllim yetişdirən alimlərlə (Sanders, 1996) keçirilən gender təlimlərindən müvəffəqiyyətli nəticələrə çatıldığı haqqında məlumatlar olsa da, nə inkişaf etmiş nə də inkişaf etməkdə olan ölkələrdə müəllim hazırlayan qurumlar, müəllimlərin maarifləndirilməsinin bir parçası olan gender bərabərliyi mövzularına yönəlik sistematik bir təhsilə önəm vermirlər (AAUW, 1999; Buchberger ve ark., 2000; Cushman, 2010; Gaudet ve Lapointe, 2002; Knipe ve ark., 2002; Malmgren ve Weiner, 2001; Weiner, 2000; Younger ve Warrington, 2008). (36)

## 2.2 Gender stereotiplərinin ailə mühitində formalaşması

"İnsan inkişafı nəzəriyyəsinə əsasən, inkişaf yalnız üç amilin - müəyyən ehtiyatlara (məsələn, təhsilin verdiyi biliklərə) yiyələnmək üçün hüquq, imkan və qabiliyyətin olduğu şəraitdə yer tuta bilər. İnsan inkişafı üçün əlverişli şəraitin olub - olmamasını öyrənmək məqsədi ilə biz bu üç amilin təsiri altında formalaşan konkret həyat təcrübələrinə müraciət etməliyik."

Qadınlar və feminist elm işçiləri illərlə gender bərabərsizliyinə qarşı çıxmış, qadınların öz müqəddəratlarını öz əllərinə alaraq, öz imkan və bacarıqlarının fərqinə varmış, qabiliyyətlərini artırmışlar. Bu proses elmdə və insan inkişafı nəzəriyyəsində "qadınların səlahiyyətlərinin genişləndirilməsi" ("women's empowerment") adlanır və qeyri-bərabərlik şəraitində imkanlar əldə etməyin və inkişafın əsasını təşkil edir. Bəzən aparılan ümumi araşdırmalar təhsildə və təhsil qabiliyyətinin müqayisəsində oğlanlarla qızlar arasındakı fərqi hiss etdirmir və hər şeyin bərabərlik şəraitində olduğu görünür. Hətta təhsil hüququnun milli qanunvericilikdə əks olunması, günü-gündən çoxalan məktəb sayı və s. birəbir bərabərliyi əks etdirir və əslində yaşananlar üzə çıxmır. Bunun üçün də ayrıca gender bölgüsü üzrə aparılan gender araşdırmalarının olması labüddür. (13)

Bununla belə, UNDP-nin Azərbaycan üzrə olan tədqiqatlarının nəticələrindən görünür ki, qadınlar və kişilər arasında olan bu ədalətsiz bərabərlik hələ də özünü məişət zəminində, məişət münasibətlərində kəskin biruzə verməklə qalmır, eyni zamanda cəmiyyətə də öz mənfi təsirini göstərir. Hüquqi baxımdan məsələyə yanaşsaq, o zaman yenə də qanunvericilikdən kənar olan hadisələrlə, qadınların şəxsi, sosial və siyasi həyatları ilə bağlı qərar qəbuletmə imkanlarının kişilərlə müqayisədə çox aşağı olduğunun şahidi oluruq.

"Gender, ictimai normalar və təsisatlar da daxil olmaqla müxtəlif amillərin kompleks şəkildə qarşılıqlı təsiri nəticəsində qadın yalnız reproduktiv

potensialına görə dəyərləndirilməyə davam edir və onun rolu ailə çərçivəsi ilə daha da məhdudlaşdırılır.” (6)

Məktəblər mədəniyyətlilik baxımından öndə duran qurumlardandır. Onlar ailədən, mediadan, dini təşkilatlardan uzaq, ayrı bir cəmiyyət kimi qurulmuşdur, lakin bu o demək deyil ki, onlar ölkənin və yaxud ümumi bir regionun mədəniyyətindən də uzaqdır. Müəllimlər və şagirdlər məktəbdən kənarda dominant olan mədəni dəyərləri məktəb daxilinə gətirərək, valideynlərin və cəmiyyətin təşviq etdiyi gender stereotiplərini təhsil prosesində yayırlar. Bu növ təhsili hələ də almağa davam edən bir cəmiyyətdə bu stereotiplərə qarşı vuruşmaq, onlarla yaşamaq qədər çətin və vacibdir.

Məktəbə daxil olmazdan öncə bütün uşaqlar ailə adlı kiçik cəmiyyətin süzgəcindən keçirlər. Bu uzunmüddətli prosedur zamanı onların düşüncə və xarakterlərinin 80 faizi artıq formalaşmış olur. Gender stereotipləri onlara aşılanaraq, beyinlərində təkcə məlumat xarakterli qalmır, onların yaşam tərzlərini belə formalaşdırır.Yəni biz uşaqların gender fərqlilikləri ilə böyüməsində əsas rolu sadəcə məktəbdə görməməliyik. Tədqiqatlar göstərir ki, qızların məktəbdə xüsusi ilə elm sahələrindən aşağı nailiyyət göstərmələrinin səbəbi məktəb qədər də evdir. Evdə valideynlər tərəfindən motivasiyanın, təşviqin olmaması, daha çox humanitar və incəsənət sahələrinə yönləndirmə, gözləntilərin az olması bu sahələrdə qızların oğlanlara nəzərən uğurluluq səviyyəsinin aşağı olmasına gətirib çıxarır.

Apardığım sorğuya əsasən, respondentlərin atalarının və ya ailəsindəki kişi nümayəndələrinin ev işlərinə ayırdığı vaxt çox azdır. Belə ki, ev işlərini daha dəqiq ifadə etdikdə aşağıdakı nəticələri əldə etmiş oluruq:

| **kişi-ev işləri** | hər gün - tez-tez | bəzən | nadir hallarda | heçvaxt |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| yemək hazırlamaq | 17% | 23% | 28% | 32% |
| evi təmizləmək | 20% | 16% | 16% | 48% |
| paltarları yumaq | 17% | 9% | 12% | 62% |
| Öz uşaqlarının qayğısına qalmaq-onalrın gündəlik tələbatlarını ödəmək | 60% | 17% | 11% | 12% |
| Öz uşaqlarının dərsləri ilə məşğul olmaq | 33% | 34% | 15% | 18% |
| kommunal xərcləri ödəmək | 78% | 16% | 4% | 2% |

Göründüyü kimi, kişilərin ev işlərinin bölgüsündəki rolu kifayət qədər azdır. Respondentlərin 32%-i atalarının heç vaxt yemək hazırlamadığını, 48%-i heç vaxt ev təmizliyi ilə məşğul olmadığını, 62%-i heç vaxt paltar yumaq məsələsi ilə maraqlanmadığını bildirdiyi halda, atalarının öz uşaqlarının gündəlik tələbatını ödəmiş olduqlarını da 60% ilə nümayiş etdirmişlər. Bu o deməkdir ki, ölkəmizdə kişilərin uşaq qayğısı ilə bağlı diqqətlərinin artırılmasına yönəlmiş tədbirlər və layihələr qismən də olsa, öz nəticəsini yavaş - yavaş verməyə başlamışdır. Lakin hələ də, çox böyük boşluqlar olduğunu nəzərə almaq lazımdır. Məsələn, uşaqlarının dərsləri ilə məşğul olmaq həm ananın, həm də atanın məsuliyyəti altında olmalıdır. Lakin yalnız 33% kişilər öz uşaqlarının dərsləri ilə yaxından və gündəlik maraqlanır və bunu izləyir. Buna misal kimi, məktəbdə keçirilən valideyn iclaslarına əksərən, böyük çoxluq və sıxlıqla anaların iştirakını göstərmək labüddür.

Bundan əlavə, ataları qayğının göstərilməsində və ev işlərində iştirak etmiş, habelə gender bərabərliyinə daha müsbət yanaşan kişilər böyük ehtimalla gender məsələlərini dəstəkləməyə daha meyillidir. Gender bərabərliyini daha çox dəstəkləyən kişilərin uşaqlara gündəlik qayğının göstərilməsində və ev işləri ilə yaxından maraqlanmasında daha çox iştirak etdiyinə dair məlumat əldə edilib. Atalarının ev işləri ilə məşğul olmasını uşaq ikən müşahidə etmiş kişilərin öz uşaqlarına gündəlik qayğının göstərilməsində yaxından iştirak etməyə daha

meyilli olması qayğı məsələlərinə dair nəsillərarası dəyişikliklərin baş verdiyini nümayiş etdirir. (6, səh. 11)

Bundan başqa, Gender stereotiplərinin həyatımıza təsirinin görünməyən üzü ilə bağlı UNFPA Azərbaycanın apardığı "İMAGES" tədqiqatında kişilərin kəskin gender stereotiplərini qoruması ilə bərabər, gender bərabərsizliyi ilə bağlı olan ciddi problemlər olmadığını, cəmiyyətin ədalətli və bərabər imkanlarla qadınlara davrandığını iddia etmişlər. Kişilər üçün bu məsələni gün üzünə çıxarmaq, bilinən etmək, eyni zamanda onları bu işdə dəstək olmağa çağırmaq üçün çox çalışmaq lazımdır. Bu cür vəziyyətdən irəli gələn çətinlikləri aradan qaldırmaq üçün şəxsi və ictimai normalar sahəsində önəmli dəyişikliklərin olması zəruridir.

Qızlarda müstəqillik, kritik düşüncə, məntiq və təcrübə də daxil olmaqla, elm adamlarına xas xüsusiyyətləri inkişaf etdirə bilməməsinin əsas səbəbləri məhz ailə adlı cəmiyyətin təsirləridir. Qızlar özlərində hər zaman bu xüsusiyyətlərə əks olan xarakteristika formalaşdırırlar. Məsələn asılı olma, qayğıya qalma, passivlik onların əsas xüsusiyyətləridir. Açıq aydın görünür ki, valideynlər birbaşa və ya bilavasitə yollarla qız uşaqlarının elm sahələrində nailiyyət qazanmalarına, akademik maraqlarına, bacarıqlarına təsir edir. Misal üçün, valideynlər oğlan uşaqlarına qız uşaqlarından daha çox intellektual ,elmi oyunlar və ya oyuncaqlar alır,onlar üçün əlverişli mühit yaradır.

Bütün ehtimallarda uşaqlar məktəbə başlayanda artıq gender əsaslı düşüncələr və davranışlarla təchiz olunmuşdular. Lakin proses hələ bitməyib; gender rolu şəxsiyyətin inkişafında məktəb həyatı boyu yaxşılaşmağa davam edəcəkdir. Məktəb təkcə ümumiyyətlə uşaqları ictimailəşdirmir, eyni zamanda gender rollarının bölgüsü və kodlaşdırılmasına güclü və məhdudlaşdırıcı təsir göstərir.

## 2.3 Gender stereotiplərinin iş mühitində formalaşması

Son illər aparılmış tədqiqatlar göstərir ki, Azərbaycanda kişilər ənənəvi olaraq ailə münasibətlərində və ictimai həyatda aparıcı mövqeyə malikdirlər. Ənənəvi olaraq, Azərbaycanda qadınlar könüllü olaraq daha çox ailə həyatı, uşaqlara qayğı və bu kimi fəaliyyətlərlə məşğul olurlar və bu milli mentalitetin bir hissəsini təşkil edir. (4)

Yaşlı nəslin nümayəndələri ilə müqayisədə gənc Azərbaycanlı qadınlar həyatın bir çox sahələrində uğurlar əldə etmişlər. Bu,xüsusilə, təhsil, iş və ailə kimi üç əsas sahədə müşahidə edilir. Bu gün qadınlar daha savadlı və daha səriştəlidirlər və buna görə də onların iş tapmaq imkanları nisbətən daha genişdir. Çevik ailə və iş qrafiki qadınlara həm karyera, həm də ailə həyatı qurmağa imkan verir. Lakin bu imkanlardan istifadə etmək dərəcəsi hələ də kifayət qədər yüksək deyildir. Eyni zamanda, qadınların ev büdcəsini dəstəkləmək üçün çalışması və bütün digər ev işləri ilə (nəzərə alaq ki, buna uşağa baxmaq da daxildir) məşğul olması da çox çətin hal alır. Bütün bu halları aradan qaldırmaq üçü ictimai və şəxsi normalar çərçivəsində mövcud vəziyyəti dəyişməyə yönəlik qaydalar tərtib etmək lazımdır.

Azərbaycanda qadınların indiki statusu onların peşə seçimlərində və təhsil sahəsində irəliləmələrində öz əksini tapmışdır. Belə ki, statistik məlumatlara əsasən, bir neçə il bundan əvvəl cəmi dörd akademik qadın olduğu halda, indi onların sayı on birdir. (4)

Əlbəttə ki, vətənimizə xas olan milli adət-ənənələrimiz bizim üçün çox dəyərlidir və biz onları qoruyub saxlamalıyıq. Bu məsələdə qadınların işi daha çox ailəvi məsələlərlə bağlıdırsa belə, bu çox təqdir olunan bir məsuliyyətdir. Lakin biz texnologiya, dəyişkənlik əsrində yaşayırıq. Dünya ölkələri ilə ayaqlaşmaq üçün

bizim qadınlarımıza sadəcə ali təhsilli olub, sonradan özlərini ailələrinə həsr etməkləri kifayət etmir, çünki onlar ilk növbədə gələcəyin şəxsiyyətini inkişaf etdirirlər və bu o şəxsiyyətdir ki, dayanmadan dəyişən dünya ilə ayaqlaşmağa çalışacaq. Əgər qadınımız daim cəmiyyətlə iç-içə olmasa, daim öyrənmə mühitində olmasa, onda bu yalnız uşaqlarına tərbiyədə təsir etməyəcək, həmçinin də, valideyn-uşaq münasibətlərində anlaşılmazlıqlara gətirib çıxaracaq.

Bu günkü günümüzdə ailələrin əksəriyyətində valideynlərlə uşaqlar arasında anlaşılmazlıqlar olur. Buna səbəb valideynin öz təcrübələrini uşaqlarının həyatına birbaşa dəyişdirilmədən, individuallaşdırılmadan tətbiq etməyə çalışmasıdır. Halbuki onların öyrəndiyi təcrübə keçən dövrün, SSR-nin yaratdığı sistemə əsaslanır, idealist sistemlə ayaqlaşır. Buradan belə nəticəyə gəlmək olar ki, hər bir valideyn qadın ya da kişi olmasından asılı olmayaraq, daim yeniliklərdən xəbərdar olmalıdır. Boşuna deyildir ki, bütün dünyada olduğu kimi bizim ölkəmizdə də yavaş-yavaş irəliləyən "life long learning" proqramları var və bu proqram insanları ömürboyu öyrənməyə təşviq edir.

Bundan əlavə yuxarıda qeyd olunmuş qadınların akademik sahələrdə irəliləməsi haqqındakı abzas doğru olduğu qədər də, mübahisəlidir. Çünki Azərbaycan qadınları hələ də öz təhsil dərəcələrini və akademik adlarını yüksəltməkdə böyük çətinliklərlə qarşılaşırlar və nəticə etibarilə hər iki tərəfdən də kişilərdən xeyli geri qalırlar. Ailə bağlarının güclü olması qadınların təhsil həyatlarını və akademik həyatlarını qurban vermələri üçün kifayət edən səbəb deyil. Belə ki, bugün hərkəsin tanıdığı elə Azərbaycan qadınlarını misal çəkə bilərik ki, onlar həm karyeralarında, həm təhsil və akademik həyatlarında, həm də ailə həyatlarında uğurludurlar və bu qadınların sayının gender stereotiplərini aşan və qadın-kişi bərabərsizliyini yox edən səviyyədə olması labüddür. Aşağıdakı qrafiklər qadınların təhsil və akademik yöndən kişilərdən nə qədər geridə olmasını göstərir.

“Qadın sosial prestijdə də kişilərdən geri qalır. Cəmiyyətdə qadın seqreqasiyası nəticəsində «qadın ixtisasları» «kişi ixtisaslarına» nisbətən az prestijlidir. Qadınlar az maaşlı işlərdə çalışmağa məcbur olurlar. Nəticədə, qadınlar o işlərdə fəaliyyət göstərirlər ki, bu işlər kişilərin marağını çəkmir, bu onlar üçün darıxdırıcı olur və sonda qadınların əksəriyyəti perspektivsiz işlərlə məşğul olurlar.” (17)

Kənd yerlərində cinsi bərabərsizliyin bütün əlamətləri getdikcə daha da artır. Kənddə qadın və qızlar daha çox ev təsərrüfatı ilə məşğuldur, onların əsasən təhsil almağa imkanları yoxdur. Beləliklə, onların təhsil hüququ ayn-seçkiliyə uğrayır. Getdikcə adət halını almağa başlayan, Bu kimi hallar azyaşh qızların erkən ərə verilməsi və təhsildən yayılmasına rəvac verən amillərdəndir.

Azərbaycanda ali təhsili olan qadınların faizi beynəlxalq standartlara görə kifayət qədər çox yüksəkdir və kişilər üçün olan göstərici ilə təxminən eynidir. Səhiyyə və təhsil sistemində işləyənlərin təxminən 65 faizi, elm sahəsində işləyənlərin ən azı 43 faizi qadındır. Bununla belə, ölkənin ən yüksək inzibati və siyasi vəzifələrində qadınlar nadir hallarda təmsil olunur. Ümumiyyətlə, ölkədə yüksək vəzifələrin 30 faizdən az hissəsini qadınlar tutur. (16)

Hər bir Azərbaycan vətəndaşının AR Konstitusiyasının 42-ci maddəsinə əsasən, pulsuz təhsil almaq haqqı var. Təhsil sistemində isə təhsilalanların gender mövzusunda maarifləndirilməsi ilə qadın və kişi imkanlarının bərabərləşdirilməsi və yaxşılaşdırılması yolunda önəmli addımlar atıla bilər. Bu yöndə verilən təhsilin keyfiyyəti yüksək olduğundan, cəmiyyətdəki yoxsulluğun aradan qaldırılması prosesi daha yüngülləşəcəkdir. Bu da o deməkdir ki, təhsilli insanların sayı artdıqca  əmək bazarında rəqabətqabiliyyətli işçilərin sayı da artacaqdır. (19)

**1. 2019/2020-ci tədris ilinin əvvəlinə əyani ümumi təhsil müəssisələrində rəhbər işçilər**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Direktorlar: | | | | |
| ümumi orta təhsil müəssisələrində | 3,2 | 9,3 | 24,8 | 75,2 |
| tam orta təhsil müəssisələrində | 21,5 | 33,4 | 38,1 | 61,9 |
| Direktor müavinləri: | | | | |
| ümumi orta təhsil müəssisələrində | 4,3 | 6,1 | 40,0 | 60,0 |
| tam orta təhsil müəssisələrində | 71,0 | 51,2 | 57,0 | 43,0 |
| Direktorlar və onların müavinlərinin sayı - cəmi, | | | | |
| faizlə | 100 | 100 | 48,8 | 51,2 |
| nəfər | 5401 | 5656 | x | x |

(4)

Yuxarıdakı qrafikdən göründüyü kimi 2019 və 2020-ci il üçün direktorların ümumi çəkisinin 42,7 % -ni kişilər təşkil etdiyi halda, 24,7% -ni qadınlar təşkil edir. Vəzifənin status düşdükcə qadınların həmin vəzifə üçün uyğunluğu artmağa doğru gedir. Məsələn, direktor müavini olan kişilər 57,3% təşkil etdiyi halda, müavin qadınların faizi bu illər üçün 75,3% olmuşdur. Bütün bunlara baxmayaraq, ümumi təhsil müəssisələrində işləyən müəllimlərin əksəriyyəti qadındır. Buradan belə nəticə çıxarmaq olar ki, məşğulluq sahəsində və əmək bazarında qadın və kişi fərqlilikləri hələ də var və cəmiyyətimizdə olan stereotiplərin buradakı rolu çox mühümdür. (27)

**2. 2019/2020-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələrində professor-müəllim heyəti**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | **qadınlar** | **kişilər** | **Qadınlar** | **kişilər** |
| Rektorlar | 0,1 | 0,6 | 9,8 | 90,2 |
| Prorektorlar, filial direktorları | 0,4 | 2,3 | 18,6 | 81,4 |
| Laboratoriya və şöbə müdirləri | 4,5 | 6,2 | 47,1 | 52,9 |
| Fakültə dekanları | 0,6 | 2,2 | 26,5 | 73,5 |
| Kafedra müdirləri | 2,7 | 9,1 | 26,7 | 73,3 |
| Kafedra heyətindən professorlar | 2,2 | 10,3 | 20,8 | 79,2 |
| Kafedra heyətindən dosentlər | 23,9 | 31,3 | 48,3 | 51,7 |
| Baş müəllimlər | 30,8 | 21,1 | 64,0 | 36,0 |
| Müəllimlər, assistentlər | 34,8 | 16,9 | 71,6 | 28,4 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 55,0 | 45,0 |
| nəfər | 7467 | 6111 | X | x |

(4)

2019 – 2020 -ci illərdə ölkənin dövlət ali məktəblərində rektorların 0,1 faizi, prorektor və filial direktorlarının isə 0,4 faizi qadınlar olub. Fakültə dekanlarının 0,6 faizini, kafedra müdirlərinin 2,7 faizini, kafedra heyətində professorların 2,2 faizini qadınlar təşkil edib. Dosentlər arasında qadınlar 23,9 faiz olsa da, müəllim, baş müəllim vəzifəsində çalışan qadınların sayı kişilərdən uyğun olaraq, 1,8 və 1,5 dəfə çox olmuşdur. Bu vəziyyət həm də ali məktəblərdə çalışan qadınlar arasında elmi dərəcə müdafiə edənlərin sayının kişilərlə müqayisədə az olması ilə izah oluna bilər.

**3. 2019/2020-ci tədris ilinin əvvəlinə dövlət və qeyri-dövlət tədris müəssisələrinin növləri üzrə pedaqoji işçilər (əsas heyət)**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | **qadınlar** | **kişilər** | **qadınlar** | **kişilər** |
| Əyani ümumi təhsil müəssisələrində müəllimlərin sayı | 89,7 | 77,4 | 80,9 | 19,1 |
| Peşə təhsili müəssisələrində müəllimlərin sayı | 0,8 | 1,2 | 71,5 | 28,5 |
| Orta ixtisas təhsil müəssisələrində professor-müəllim heyətinin sayı | 3,5 | 3,4 | 78,8 | 21,2 |
| Ali məktəblərdə professor-müəllim heyətinin sayı | 6,0 | 18,0 | 54,7 | 45,3 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 78,5 | 21,5 |
| nəfər | 137770 | 37815 | x | x |

(4)

Digər sxemlərin də izahını verərkən qeyd etdiyimiz kimi, qadınlara qarşı cəmiyyətimizdə qoyulan stereotiplər qadınların yüksək maaşlı vəzifələrdə işləyə bilməməsinə, hətta qadın sayının ən çox olduğu ixtisas və məşğulluq sahəsində belə yüksələ bilməməsinə səbəbdir. Qrafikdən göründüyü kimi 2019 - 2020-ci illər üçün ümumi pedaqoji işçi heyətinin qadınlar və kişilər arasındakı bölgüsü 10:3- ə nisbətindədir.

**4. 2019\2020 -ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələri tələbələrinin ixtisas qrupları üzrə bölgüsü**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| İxtisas qrupları | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Təhsil | 39,8 | 11,8 | 76,0 | 24,0 |
| Humanitar və sosial | 12,7 | 10,7 | 52,7 | 47,3 |
| Mədəniyyət və incəsənət | 4,6 | 2,6 | 62,4 | 37,6 |
| İqtisadiyyat və idarəetmə | 13,8 | 25,2 | 34,0 | 66,0 |
| Təbiət ixtisasları | 6,2 | 3,3 | 64,1 | 35,9 |
| Texniki və texnoloji ixtisaslar | 12,0 | 33,0 | 25,5 | 74,5 |
| Kənd təsərrüfatı ixtisasları | 1,6 | 3,1 | 33,1 | 66,9 |
| Səhiyyə, rifah və xidmət ixtisasları | 9,3 | 10,3 | 45,9 | 54,1 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 48,5 | 51,5 |
| nəfər | 81920 | 87095 | x | x |

(4)

Yuxarıdakı cədvəlin məlumatlarından göründüyü kimi, ali məktəblərə qəbul olunan qadınlar əsasən təhsil, mədəniyyət və incəsənət, təbiət ixtisasları, kişilər isə iqtisadiyyat və idarəetmə, texniki və texnoloji yönümlü ixtisaslara üstünlük verirlər. 2019/2020-ci tədris ilində dövlət ali məktəblərində oxuyan bütün qadınların 49,8 faizi təhsil, 12,7 faizi humanitar və sosial ixtisaslar, 6,2 faizi təbiət elmləri, 13,8 faizi iqtisadiyyat və idarə etmə, 9,3 faizi səhiyyə, 4,6 faizi isə mədəniyyət və incəsənət ixtisasları üzrə təhsil almışdır.

2019/2020-ci tədris ilinin əvvəlinə dövlət ali məktəblərində qadınların xüsusi çəkisi 48,5 faiz, kişilərin xüsusi çəkisi isə 51,5 faizlə olmuşdur.

**5. 2019/2020-ci tədris ilinin əvvəlinə qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyəti**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Rektorlar | 0.3 | 1.4 | 16.7 | 83.3 |
| Prorektorlar, filial direktorları | 1.4 | 3.9 | 28.2 | 71.8 |
| Laboratoriya və şöbə müdirləri | 8.4 | 7.9 | 53.7 | 46.3 |
| Fakültə dekanları | 1.4 | 3.1 | 33.3 | 66.7 |
| Kafedra müdirləri | 4.3 | 7.4 | 38.4 | 61.6 |
| Kafedra heyətindən professorlar | 2.8 | 8.4 | 26.8 | 73.2 |
| Kafedra heyətindən dosentlər | 17.3 | 23.7 | 44.2 | 55.8 |
| Baş müəllimlər | 21.0 | 9.4 | 70.7 | 29.3 |
| Müəllimlər, assistentlər | 43.1 | 34.8 | 57.3 | 42.7 |
| Cəmi, faizlə | 100.0 | 100.0 | 52.0 | 48.0 |
| nəfər | 773 | 713 | x | x |

(4)

5-ci qrafikdən göründüyü kimi qeyri-dövlət ali təhsil müəssisələrində də vəziyyət eyni qalmışdır. Yenə də həmin illər üçün rektor, prorektor və filial direktorları vəzifələrində çalışan qadınların sayı kişilərin sayından uyğun olmaqla, 4,7 və 2,8 dəfə azdır. Laboratoriya və şöbə müdirləri kimi çalışan qadın və kişilər sayca balansı qoruduğu halda, tutulan vəzifənin maddi dəyəri aşağı düşdükcə, qadınların həmin peşəyə sahib olma nisbəti artmaqda davam edir. Kafedra

müdirləri arasında qadınlar 4,3 , kişilər 7,4 faiz vəzifə tutduqları halda, baş müəllim, müəllim və assistentlər arasındakı bölgü eyni qaydada 2,23 və 1,24 olmuşdur.

"Azərbaycanda deputat yerlərinin 17,6%-I qadınlar tərəfindən təmsil olunur. Qadınların 65%-i ikinci dərəcəli və ali təhsil səviyyəsinə çatdığı halda bu göstərici kişilərdə 62%-dir. Qadınların əmək bazarında iştirakı 60% lakin kişilərin iştirakı isə 67% təşkil edir ki, bu digər MDB ölkələri ilə müqayisədə nisbətən yüksəkdir. Azərbaycanda gender münasibətlərinə bir çox faktorlar təsir edir, lakin üç əsas təsirlər bunlardır:

- Gender bərabərliyi üzrə Sovet siyasətinin mirası nəticəsində gender bərabərliyi siyasi və iqtisadi təmsilçilikdə kvotalar vasitəsilə müəyyən dərəcədə mövcuddur,
- keçid dövründə olan sosial və iqtisadi çətinliklərin, Azərbaycan torpaqlarının zəbt edilməsi ilə daha da kəskinləşməsi və
- ənənəvi Azərbaycan dəyərləri və mədəniyyətinin təsiri." (16)

Sovet sistemi qadınlara şərait yaradırdı ki, onlar kişilərlə bərabər imkanlar çərçivəsində sosial və siyasi idarəetmədə və məşğuliyyət- peşə sahələrində çalışsınlar. Lakin bununla bərabər, qadının ev təsərrüfatı məsuliyyətlərinin və uşaq yetişdirmək ilə bağlı olan ağır işlərin heç biri onlardan alınmırdı və ya ədalətli şəkildə bölünmürdü.

Sovet dövründən sonra azadlığımızın bərqərar olduğu illərdə gender bərabərliyi ilə bağlı qanunlar Konstitusiyaya daxil olmaqla bərabər, Pekin Platformasına və QQAAK ratifikasiyasına da imkan yaradılmışdır.

Azərbaycan Respublikasında gender bərabərliyi haqqında qanun ilk dəfə 2006-ci ildə "gender ayrı-seçkiliyinin bütün formalarının qadağan olunması" haqqında olmuş, əmək haqqı və peşə məsələlərini də özündə ehtiva etmişdir. Yalnız Əmək Məcəlləsində qadınlar və kişilər üçün bərabər səviyyəli əmək haqqları barədə müddəa yoxdur.

Azərbaycanın ənənəvi normalara və dəyərlərə bağlılığı qadınların ictimai, siyasi və sosial baxımdan sərhədlərini yıxmasını və əxlaq, namus, qeyrət kimi dərin mənaları olan ideyalara qarşı meydan oxumasını çətinləşdirir.

Bir qadının dəyəri yaxşı və sadiq qız olmaqdan, yemək bişirmə və qayğıya qalma kimi bacarıqlarının olmasından, evliliyə uyğun bir ruha – materiala sahib olmasına qədərki faktorlardan asılı olaraq dəyişə bilir. Qadınların şəxsi fikirləri və sahib olduqları məlumatlar və savad çox az dəyər alır; Cəmiyyətdəki və ümumi olaraq ölkədəki təsirləri öncəlikli deyildir.

Azərbaycanda qadınlar iş gücünün yarısından çoxunu üstlədiyi halda ( Dünya Bankına görə 63%-ini təşkil edir) yüksək maaşlı yerlərdə və yüksək vəzifələrdə deyillər. Qadınların olduğu iş yerləri daha çox "yüngülvari karyera" və ya "uyğun" vəzifələrlə əlaqəlidir. (27)

Cinsiyyət bərabərsizliyi haqqında öyrəndiyimiz zaman biz ümumi olaraq tarix boyunca və bu günümüzdə də qadınlara və onların qarşılaşdıqları haqsızlıqlara fokuslanırıq. Bunun səbəbi isə odur ki, biz anlayırıq ki, cəmiyyətimiz hələ də qadın və kişi bərabərliyinə hər sahədə hazır deyil. "Glass-ceiling" nəzəriyyəsinin qadınlarımız üzərində böyük təsirindən tutmuş, onların təhsil alma şanslarının yetərincə olmamasına və cəmiyyətin "qadın və kişi maaşları" stereotipinə qədər araşdırılacaq çox mövzu vardır. Ədalətə fokuslandıqda, bizə öyrədilən və

qanunlarımızda da qeyd olunmuş ədalət məfhumu ilə cəmiyyətin özü-özünə yaratdığı ədalət məfhumu heç də eyni deyildir. (34)

Glass-ceiling (şüşə-tavan) nəzəriyyəsi – qadınların(və ya insanların) karyera aləmlərində müvəffəqiyyət qazanmağa çalışarkən qarşılaşdıqları bariyerlər, çətinliklərlə üzləşməsini təsvir edir. Onlar üçün gözəgörünməz bir bariyer vardır, hansı ki, bu onların həyatlarından öncə beyinlərində formalaşdırılır və onlar yüksək vəzifədə, yüksək maaşlı vəzifədə nəinki ola bilmirlər, bunun üçün cəhd göstərmək belə onlara ümidsiz gəlir.

## Cehizlik diplomlar

Ailələrindən dəstək görməyən qızlar təkcə təhsillərini alıb, onddan sonra isə evlənirlər.yəni təhsil üçün verilən dəstək əslində o qadının heç bir işinə yaramır. Çünki təhsilin nəticəsi kimi görünən diplom sadəcə “cehizlik” bir vasitədir. Ailə bağlarımıza sadiq qalaraq, yaşadığımız bu cəmiyyətdə təəssüf ki, yetərincə dəstək ala bilmir qadınlar. Ona görə də, ailə həyatı qurub öz iqtisadi imkanlarını limitləyirlər. (7)

Birmənalı olaraq, nə qadına, nə də kişiyə şəxsiyyət kimi yetişdirilmək üçün düzgün tərbiyə verilmir. Bu da istər iş, istərsə də ailə həyatında özlərinin yanlış seçimlərinə və ya ümumiyyətlə seçim haqqlarından istifadə etməməklərinə gətirib çıxarır. Başlıca olaraq, bu haqqdan istifadə onlara öyrədilsə, artıq qadınlar da, kişilər də şəxsiyyət kimi öz seçimlərini edə və məsuliyyətlərinə yiyə dura bilərlər. O zaman, bir qadın istədiyi təhsilini ala, istədiyi formada karyerasını və ailəsini qura, eyni zamanda kişi də valideyn məsləhəti ilə deyil, öz qərarları ilə ailəsini və sevdiyi sənətini seçə, ailə daxili məsələlərinin həllində valideynlərin və ya ikinci dərəcəli qohumların təzyiqindən yaxa qurtara bilər.

Ailədə ev əməyinin gender bölgüsünü tədqiq etmiş sosioloq Humay Axundzadə deyir ki, ali təhsilli evdar xanım dünyanın hər bir ölkəsində ola bilər və bu məsələnin təhlilində həm institusional, həm şəxsi səbəbləri nəzərə almaq lazımdır:

"Sovet ittifaqı dağılandan sonra belə bir tendensiya yaranmışdı. Ali təhsilli qadınların bir qismi peşə fəaliyyətini dayandırmış, evdarlığı seçmişdi. Bunun səbəbi əmək bazarının dəyişməsi, sərtləşməsi idi".

Sosioloq düşünür ki, adətən, ətrafdakılar da qadının bu kimi həyat tərzini dəstəkləyir və beləliklə də ali təhsilli evdar qadınların sayının artmasına problem kimi yanaşılmır:

"Müqayisə üçün deyim ki, 40-50 il bundan əvvəl işləməyən qadın ictimai qınağa məruz qala bilərdi, çünki ideoloji səviyyədə "işləyən ana" obrazı təbliğ olunurdu. Yəni ideal qadın obrazı həm evdarlığın, həm də peşə fəaliyyətinin öhdəsindən gəlməyi nəzərdə tuturdu. (7)

# III Fəsil. TƏHSİL PİLLƏLƏRİNDƏ GENDER STATİSTİK ARAŞDIRMALARI

**6. Azərbaycan Respublikasında 2019-cu ildə əyani ümumi təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ölkənin ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin cins üzrə bölgüsü, faizlə**

| Şəhər və rayonlar | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Bakı şəhəri | 31,6 | 31,5 | 49,9 | 50,1 |
| Abşeron iqtisadi | | | | |
| rayonu - c ə m i | 7,4 | 9,0 | 44,9 | 55,1 |
| Gəncə-Qazax iqtisadi | | | | |
| rayonu - c ə m i | 14,0 | 11,0 | 56,1 | 43,9 |
| Şəki-Zaqatala iqtisadi | | | | |
| rayonu - c ə m i | 6,7 | 5,5 | 54,7 | 45,3 |
| Lənkəran iqtisadi | | | | |
| rayonu - c ə m i | 5,8 | 7,5 | 43,6 | 56,4 |
| Quba-Xaçmaz iqtisadi | | | | |
| rayonu - c ə m i | 4,6 | 4,0 | 53,5 | 46,5 |
| Aran iqtisadi | | | | |
| rayonu - c ə m i | 13,7 | 14,4 | 48,5 | 51,5 |
| Yuxarı Qarabağ iqtisadi | | | | |
| rayonu - c ə m i | 5,2 | 5,3 | 49,6 | 50,4 |
| Kəlbəcər-Laçın iqtisadi | | | | |
| rayonu - c ə m i | 2,7 | 3,0 | 46,7 | 53,3 |
| Dağlıq Şirvan iqtisadi | | | | |
| rayonu - c ə m i | 2,7 | 2,9 | 48,3 | 51,7 |
| Naxçıvan Muxtar | | | | |
| Respublikası - c ə m i | 5,6 | 5,9 | 48,6 | 51,4 |
| Azərbaycan Respublikası - cəmi, | | | | |
| faizlə | 100,0 | 100,0 | 49,9 | 50,1 |
| nəfər | 17185 | 17276 | x | x |

(24)

6-cı göründüyü kimi, ali təhsilə cəlb olunma ilə bağlı cins bölgüsündə qadınların sayınn müqayisəli şəkildə faiz göstəricisi Bakı şəhəri də daxil olmaqla, əksər digər regional bölgələrin hamısında aşağı səviyyədədir və buna səbəb təkcə, onların ali təhsili bir seçim kimi etməməsi deyil. Burada erkən nikah, ailə təzyiqi, mental dəyərlər kimi bir sıra amillər də mühüm rol oynayır.

Apardığım tədqiqat işinin suallarından biri respondentlərin ətrafında orta təhsilini davam etdirməyən qız və ya gənc nəsil qadınların olub olmaması ilə bağlı idi. Qeyd edim ki, respondentlərin 60%-i, xüsusilə də qadınlar bu suala pozitiv cavab vermişdilər. Bizim statistikalarımızda nəinki bu nüanslar yoxdur, eyni zamanda bununla bağlı dərin araşdırma da aparılmır. Bu cür qızlar adətən, ailələrinin qərarı ilə təhsildən yayınırlar.

## Erkən və məcburi nikahlar (Early And Forced Marriages)

Erkən və məcburi nikahlardan danışarkən ilk növbədə qeyd etmək lazımdır ki, qadınlara qarşı zorakılığın təkcə fiziki forması deyil, həmçinin sosial, psixoloji formaları da var. Fiziki zorakılıq adından göründüyü kimi fiziki şiddət, döymək, cinsi təzyiq, cinsi zorakılıq və s. nəzərdə tutulur.

Sosial zorakılıq isə qadının müəyyən şəxslər tərəfindən azadlığının əlindən alınması, cəmiyyətdə öz yerini tutmaması üçün edilən cəhdlər, sosial yönlərini inkişaf etdirə bilməməsi üçün yaradılmış çətinliklər nəzərdə tutulur. Bunlardan ən başlıcası və ölkəmiz üçün geniş yayılmış olanı həyat yoldaşının(atasının, sevgilisinin, qardaşının) qadına küçəyə çıxmağa, harasa getməyə, gəzməyə, işləməyə və s. icazə verməməyi misalıdır.

Üçüncü ən çox məruz qalınan zorakılıq növü isə psixoloji zorakılıqdır ki, bu da insana mənəvi təzyiq və təhqirlərin edilməsi kimi başa düşülür. Bir deyim var, söz qılıncdan daha kəsərlidir. Bugün bir çox qadınlarımız məhz psixoloji təzyiq

altında əzilməkdə davam edir və bilərək və ya bilməyərək öz hüquqlarından imtina edir, bəzən "köləyə" belə çevrilir. Psixoloji zorakılıq gender stereotipləri ilə birbaşa bağlı olduğundan, bu istiqamətə daha çox önəm verilməlidir.

Əksərən qadınlar erkən yaşda nikaha məcbur edilərkən psixoloji zorakılığa məruz qalmaqdan əlavə, təhsil hüquqlarından, şəxsi inkişaflarından da imtina edilirlər, yəni sosial zorakılığa da məruz qalırlar. Getdikləri evdə də ancaq bəxtləri gətirirsə, fiziki zorakılıqdan yan keçirlər. Əks halda daha ciddi problemlər, boşanmalar, hətta sui-qəsdlər, intiharlar da baş verir.

Yeniyetmələr arasında gənc anaların nisbətən yüksək sayı Azərbaycan üçün son illərdə aktuallaşan erkən və məcburi nikahlar problemi ilə bağlıdır. Yeniyetmə analığı ana və uşaq sağlamlığı üçün xüsusi risk zonasıdır. Tədqiqatların nəticələrinə əsasən erkən nikahlar həmçinin qızların orta təhsili yarımçıq buraxmasının əsas səbəblərindən biridir.

BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən həyata keçirilmiş tədqiqata əsasən, Azərbaycanda qadınların onda birindən də çox bir hissəsi 18 yaşına çatmadan ailə qurur. (20)

Erkən və məcburi nikahlar özü də gender bərabərsizliyinin bir nəticəsidir və insan inkişafından qarşılıqlı şəkildə asılıdır. Əksərən azyaşlı qızların nikaha yönləndirilməsi və ya məcbur edilməsi nəticəsində onlar təhsildən yayınaraq, ən təməl hüquqlarından məhrum edilirlər. Bu halda onların gələcəyi təhlükə altına düşür, ixtisas yaxud peşə seçimində çətinlik yaşayırlar, çox vaxt heç bir peşəyə belə yiyələnə bilmirlər, bəzən ailə və məişət problemlərindən dolayı işləmək məcburiyyətində qaldıqlarında isə, çox aşağı maaşlı iş yerləri tapır və ya ümumiyyətlə kimdənsə asılı qalırlar. Təbii ki, bunun başqa və daha ciddi yönləri də var, hansı ki, gələcəkdə əxlaq normalarından kənar işlərə də cəlb oluna bilirlər. Açıq aydın görünür ki, təhsil hüququndan məhrum olunmuş qadınlar gələcəkdə

nə özlərinin hüquqlarını müdafiə etməyi bacarır, nə də ki, öz uşaqlarına bunu öyrədə və təlqin edə bilirlər.

Bir uşağı tərbiyə etmək, böyütmək onu qidalandırmaq və qorumaqdan daha üstün bir məsuliyyətdir. Uşaqlar öz başlarına fiziki cəhətdən böyüyürlər, amma insani keyfiyyətlərin, dünya görüşünün, zəkalılığın verilməsi, daim öyrənməyə təşviq etmə yalnız valideynin təhsilli olmasından keçir. Qadınların təhsilsizliyi və ya təhsildən yayındırılması birbaşa zorakılıqdır.

M.Quliyevin dediyinə görə, "bu gün təhsil və səhiyyə sahəsində çalışanların 80 faizi qadınlardır. "Məsələn, nə üçün polisdə qadınlar olmasın?Yaxud gömrük sahəsində sayları az olsun? Bunlara stiumul verdikcə, yaxşı nümunələrin sayı artdıqca, erkən nikah problemi də aradan qalxacaq. İqtisadi əsaslar yaratmadan qadağa və təbliğatla bu problemin qarşısını almaq olmaz". (11)

Erkən nikahların aradan qaldırılması və nikaha məcbur edilmiş qadınların hüquqlarını qorumaq məqsədi ilə 2011-ci ildə Milli Məclisin qərarı ilə Azərbaycanda qızlar üçün nikah yaşının həddi bir il artırılaraq 18 yaşa çatdırılmış və Cinayət Məcəlləsinə qadını nikaha məcbur etməyə görə məsuliyyət nəzərdə tutan maddə əlavə edilmişdir. (25)

Əlavə olaraq, 2000-ci ildə bağlanan 39611 nikahdan 2473-ü, 2010-cu ildə 79172 nikahdan 4742-si, 2015-ci ildə bağlanan 68773 nikahdan 388-si, nəhayət 2017-ci ildə bağlanan 62923 nikahdan 317-si 18 yaşınadək olan qızlar olub.

Bütün bunlara baxmayaraq, Azərbaycanda hələ erkən nigah məsələsi aktual olaraq qalmaqdadır və bu cinayətə əlbir olanların sayı da bakıətrafı kəndlər və regional bölgələrdə nəzərə çarpacaq qədərdir. Hesab etsək ki, erkən nigahın baş tutması eyni zamanda milli adət-ənənələrimizə uyğun şəkildə olur və hamı bu məsələni heç bir problemsiz qarşılayır, o zaman rahatlıqla cəmiyyətimizdəki

insanların hələ də gender maarifləndirilməsinə ciddi şəkildə ehtiyacı olduğunu və təhsil sistemimizdə bu problemin boşluq kimi canlandırılmasını müzakirə obyekti kimi ortaya qoya bilərik. Bugün erkən yaşda nikaha girmiş ailələrin hər biri gələcəkdəki erkən nikahlar üçün böyük bir riskdir. İlk növbədə ictimai qınaq yaradılmalıdır. Bu mövzuda bir çox həll yolu olduğu üçün rəsmi nikaha daxil ola bilməyən cütlük mollanın etdiyi kəbin nikahı ilə ailə quraraq , məktəbdən yayınır və beləliklə erkən nikah baş tutur. (8)

Buna görə də, maarifləndirmə xüsusilə ailə - məktəb münasibətlərində ailədəki atalara yönəldilməlidir. Onların uşaqlarının hüquqlarının tapdalanması barədə məlumat verilməlidir. Əgər kəbin ilə ailə qurularsa, boşandıqdan sonra mülkiyyət hüququndan məhrum ola bilinməsi, sağlamlığına və s. imkanlarından danışılmalıdır.

Daha detallı şəkildə fərqinə varmaq üçün təhsil pillələrindəki gender statistik araşdırmalarına müraciət edək:

## 3.1 Ümumi təhsil müəssisələri üçün gender statistik araşdırmaları

Azərbaycan Respublikasında cinsindən asılı olmayaraq bütün vətəndaşlara pulsuz icbari ümumi orta təhsil almaq hüququ dövlət tərəfindən təmin edilir. Ölkədə qadınların və kişilərin savadlılıq səviyyəsi 100%-ə yaxındır (kişilər arasında 99.9%, qadınlar arasında 99.7%).

Azərbaycanın təhsil sistemində qadınların iştirakı yüksək səviyyədə olsa da, təhsil pillələri ilə yuxarı qalxarkən şagirdlər və tələbələr arasında qadın və kişilərin sayında disbalans yaranır. Orta və ya daha yüksək təhsili bitirənlərin sayı baxımından milli göstəricilər regional rəqəmlərdən aşağıdır . 2011-2012-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələrində oxuyan tələbələr arasında qadınlar 58.800(47.6%), kişilər 64.730 (52.4%) təşkil etmişdir. (13)

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 2020-2021 təhsil ili üçün verdiyi məlumata əsasən, şagirdlərin ümumi sayından 733 279 (46.6%) nəfəri qız, 840 927 (53.4%) nəfəri isə oğlandır. (21)

100.000-dən çox olan bu qız oğlan şagirdləri arasındakı fərq gələcəkdə iqtisadi və sosial cəhətdən davamlı inkişaf üçün böyük uçurumdur. Buna səbəb ilk növbədə selektiv abortlardır. Amma bunun nəticələri, yaxın gələcəkdə istər cəmiyyətin içində, istərsə də qlobal konteksdə öz mənfliklərini büruzə verəcəkdir.

Əhalinin sayının artmağına və təhsil sahəsi üzrə dövlətin inkişafına baxmayaraq qadın - kişi nisbəti ümumi təhsil müəssisələrində hələ də fərqlidir. Belə ki, ümumi təhsil müəssisələrində qadınların sayının az olmasına baxmayaraq, orta ixtisas və ali təhsil müəssisələrində bu vəziyyət dəyişir:

## 3.2 Orta-ixtisas və natamam ali təhsil üçün gender statistik araşdırmaları

**7. 2019/2020-ci tədris ilinin əvvəlinə təhsil növləri üzrə şagirdlərin və tələbələrin cins üzrə bölgüsü**

*(Yekuna görə, yaş və cins bölgüsü, nəfər, faizlə)*

| Təhsil müəssisələrinin növləri | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Ümumi təhsil müəssisələrində | 78,5 | 80,4 | 46,7 | 53,3 |
| Peşə təhsili müəssisələrində[1)] | 7,8 | 8,4 | 45,5 | 54,5 |
| Orta ixtisas təhsili müəssisələrində | 3,7 | 1,9 | 64,1 | 35,9 |
| Ali təhsil müəssisələrində və doktoranturada | 10,0 | 9,3 | 48,8 | 51,2 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 47,3 | 52,7 |
| nəfər | 961482 | 1072395 | x | x |

(4)

Qız uşaqlarının təhsili ilə bağlı olan bir çox problemlər hələ kifayət qədər araşdırılmadığı üçün, sovet ideologiyası dövründə formalaşmış münasibət hələ də özünü göstərir. Qızların və oğlanların texniki peşə məktəbləri üzrə cinsə görə bölgüsündə gender disbalansı müxtəlif istiqamətlər üzrə peşə hazırlığının inkişafında labüddür.

Qızlar təhsil alacaqları müəssələrin seçimi zamanı yenə də əsasən tibbi, pedaqoji və humanitar sahələrə üstünlük verirlər. İxtisasa görə gender bölgüsündə son illərdə qızların iqtisadiyyata da meyilliyi müşahidə edilməkdədir. 2000-ci ildən ixtisaslaşdınlmış orta məktəblərdə oxuyan tələbələrin 67%-ni qızlar təşkil edirdi. Onların da təqribən 95%-i elmin tibb, pedaqoji, təbiət sahələrini və texnologiyanı seçmişdi. Qızların 50%-dən çoxu incəsənət, kompüter elmi, iqtisadiyyat və idarəçilik sahələrində oxumağa çalışırdı.

Maşınqayırma, inşaat, enerji, kənd təsərrüfatı və balıqçılıq kimi sahələrdə oxumaq qızlar üçün nədənsə xarakterik görünmür, çox nadir hallarda bu sahələrdə qızlara rast gəlinir. Ali məktəblərin pedoqoji və tibb elmi sahələrinə üstünlük verən tələbələrinin təxminən 61% -ın qızlar təşkil edir. (12)

**8. 2019/2020-ci tədris ilinin əvvəlinə qeyri-dövlət ali təhsil müəssisələri tələbələrinin ixtisas qrupları üzrə bölgüsü**

*(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)*

| İxtisas qrupları | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Təhsil | 28,7 | 5,2 | 85,4 | 14,6 |
| Humanitar və sosial | 30,3 | 20,4 | 61,1 | 38,9 |
| Mədəniyyət və incəsənət | 1,5 | 0,8 | 65,7 | 34,3 |
| İqtisadiyyat və idarəetmə | 25,5 | 45,3 | 37,4 | 62,6 |
| Təbiət ixtisasları | 3,9 | 1,7 | 70,6 | 29,4 |
| Texniki və texnoloji ixtisaslar | 4,9 | 15,4 | 25,3 | 74,7 |
| Kənd təsərrüfatı ixtisasları | 0,4 | 0,8 | 32,1 | 67,9 |
| Səhiyyə, rifah və xidmət ixtisasları | 4,8 | 10,4 | 33,1 | 66,9 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 51,4 | 48,6 |
| nəfər | 9581 | 9058 | x | x |

(4)

Qrafikdən göründüyü kimi 2019\2020-ci tədris ilinin əvvəli üçün statistik nəticələrə görə, qadın tələbələr təhsildə (85,4%), humanitar və sosial (61,1%) və mədəniyyət və incəsənət (65,7%) sahələrinə üstünlük verdiyi halda, kişi tələbələrin maraq sahələri məhz texniki və texnoloji ixtisaslar (74,7%), iqtisadiyyat və idarəetmə (62,6%) və səhiyyə, rifah və xidmət ixtisasları (66,9%) olmuşdur. Yalnız 2018-ci il ilə 2019-cu il arasındakı əsas dəyişiklik təbiət ixtisaslarında olmuşdur. Belə ki, 2018-ci il təbiət ixtisaslarında təhsil alan qızların və oğlanların faiz nisbəti 2.3% : 3% olduğu halda, 2019-cu il 3.4% **:** 1.9% olmuşdur. (4)

**9. 2019/2020-ci tədris ilinin əvvəlinə dövlət orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas qrupları üzrə bölgüsü**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| İxtisas qrupları | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Təhsil | 31,4 | 7,9 | 87,8 | 12,2 |
| Humanitar və sosial | 3,5 | 0,6 | 92,0 | 8,0 |
| Mədəniyyət və incəsənət | 9,9 | 8,3 | 68,2 | 31,8 |
| İqtisadiyyat və idarəetmə | 14,7 | 12,1 | 68,7 | 31,3 |
| Texniki və texnoloji | 14,0 | 44,3 | 36,3 | 63,7 |
| Kənd təsərrüfatı | 2,9 | 12,5 | 29,9 | 70,1 |
| Səhiyyə, rifah və xidmət | 23,6 | 14,3 | 74,8 | 25,2 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 64,4 | 35,6 |
| nəfər | 32546 | 18024 | x | x |

(4)

Orta-ixtisas təhsili müəssisələrində də vəziyyət ali təhsil müəssisələrinə bənzəyir. Lakin bu müəssisələrdə qızların ümumi faiz göstəriciləri nisbətən daha çox göstərir. Bunun da səbəbi orta ixtisas təhsilini bitirənlərin prestij baxımından ali təhsillilərlə müqayisədə daha az statuslu iş yerləri ilə təmin olacaqları ehtimalıdır. Qadınlar yenə də prestiji az olan yerlərdə daha çox görünür.

“Qadınlığın mistikası” kitabında müəllifin fikrincə, kollec qadınların özlərinə ər tapa biləcəyi yer kimi səciyyələndirilirdi. Qadın cinsindən olan tələbələri

həddindən artıq "düşünən" görünməmək üçün öz biliklərini nümayiş etdirməməyə çağırırdılar, çünki, bu ərə getmək şansını alt-üst edə bilərdi. Ev işlərindən yorulmasını, yaşadıqlan həyatın boş, mənasız olmasını hiss edən qadınları xanım B.Fridan belə müəyyənləşdirmişdi - "Adsız problem". O, etiraz etməyə çağırır və belə nəticəyə gəlmişdi ki, "Yalnız xəstə cəmiyyət öz problemlərini görmək istəmir, öz üzvlərinə bərabər imkanlar yaratmır və öz qadınlarının bacarıqlarına biganə qalır."

(37)

## 3.3 Magistratura və Doktorantura təhsil səviyyələri üçün gender statistik araşdırmaları

**10. Fəlsəfə doktorlarının cins üzrə bölgüsü**

**(**2019-cu ilin əvvəlinə, nəfər)




(4)

90-ci illərin əvvəlinə ölkəmizdə elmi tədqiqat və işləmələrlə ümumiyyətlə 8905 fəlsəfə doktoru məşğul olmuşdur ki, onların da cəmi 2339 nəfərini (26,3 faizi) qadın tədqiqatçılar təşkil etmişdir. Onların yarıdan çoxu elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsinə malikdirlər.

Elmi dərəcəsi olanların gender əmsalını təhlil etdikdə məlum olur ki, fərq xeyli böyükdür. Belə ki, həm elmlər namizədləri, həm də elmlər doktorları arasında kişilər çoxluq təşkil edir. Bununla belə, elmlər namizədlərinin ümumi sayında

qadınların xüsusi çəkisi illər üzrə sürətlə artmaqdadır: 2000-ci ildə ölkədə elmlər namizədi elmi dərəcəsi olan 8380 nəfərin 30,8 faizi (2572 nəfəri) qadın olduğu halda, 2006-cı ildə 8644 nəfərin 59,5 faizi, yaxud 3062 nəfərini qadınlar təşkil edib. Qeyd olunan dövrdə ölkədə kişilər arasında elmlər namizədlərinin sayı 5808- dən 5582-yə düşdüyü (başqa sözlə, 4 faiz azaldığı) halda, elmlər namizədi olan qadınların sayı 2572-dən 3062-yə yüksəlib (yəni 19 faiz artıb).

Qrafikdən də göründüyü kimi, 2019-cu ildə qadın – kişi fəlsəfə doktoru disbalansının faiz nisbəti nisbətən daha aşağıdır.

**11. Elmlər doktorlarının cins üzrə bölgüsü**

(2019-cu ilin əvvəlinə, nəfər)




(4)

1991-ci ildə ölkədə elmlər doktoru elmi dərəcəsi olan 1186 nəfərdən 120-si, yaxud 10 faizi qadın idisə, 2018-ci ildə 2447 nəfərin 380-ı, yaxud cəmi 15 faizi

qadınlar olub, 2019-cu il üçün isə bu faiz göstəricisi cüzi miqdarda artaraq 19 faiz olmuşdur.

**12. 2020-ci ilin əvvəlinə elmin sahələri bölgüsündə fəlsəfə doktoru proqramı üzrə təhsil alanlar**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Pedaqogika | 5,1 | 3,4 | 65,3 | 34,7 |
| Filologiya | 21,0 | 4,8 | 84,8 | 15,2 |
| Kimya | 4,4 | 4,2 | 57,3 | 42,7 |
| Tibb | 8,2 | 4,0 | 72,5 | 27,5 |
| Biologiya | 6,3 | 2,5 | 76,0 | 24,0 |
| Psixologiya | 2,1 | 0,6 | 81,2 | 18,8 |
| Fizika və riyaziyyat | 8,3 | 4,2 | 71,7 | 28,3 |
| Sənətşünaslıq | 3,0 | 2,6 | 58,7 | 41,3 |
| Tarix | 4,5 | 1,6 | 78,1 | 21,9 |
| Memarlıq | 1,0 | 0,2 | 86,7 | 13,3 |
| Fəlsəfə | 0,8 | 0,9 | 52,6 | 47,4 |
| Siyasi elmlər | 3,8 | 5,8 | 45,2 | 54,8 |
| Texnika | 7,4 | 17,4 | 35,1 | 64,9 |
| Mexanika | 0,2 | 0,8 | 27,3 | 72,7 |
| Hüquq | 2,6 | 3,9 | 45,7 | 54,3 |
| İqtisadi | 11,4 | 22,5 | 39,2 | 60,8 |
| Coğrafiya | 1,4 | 1,8 | 50,0 | 50,0 |
| Yer elmləri | 1,3 | 5,7 | 22,2 | 77,8 |
| Digər | 7,2 | 13,1 | 41,1 | 58,9 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 56,0 | 44,0 |
| nəfər | 1253 | 986 | X | x |

(4)

2020-ci ildə ölkəmizdə fəlsəfə doktoru elmi adını qazanmaq üçün elmi tədqiqat işləri ilə ümumiyyətlə 2239 mütəxəssis məşğul olmuşdur. Qadınların üstünlük verdikləri elm sahələri psixologiya, pedaqogika, filologiya, incəsənət olmuşdur və kişilərə nisbətən biologiya, kimya, fizika və riyaziyyat elmlərində çoxluq təşkil etmişlər. Kişilərin isə üstün olduğu sahələr siyasət, texnologiya , mexanika, hüquq və digər elmlər olmuşdur. Bəs qadınların sayı son illər ərzində elmi dərəcələrin üst pillələrində niyə çoxalır? Bunu belə açıqlamaq mümkündür:

İllər ərzində aparılan maarifləndirmələr çərçivəsində qadınların, eləcə də cəmiyyətin gender stereotiplərinə qarşı müqaviməti artmışdır. Lakin, bu stereotiplər qadınları nisbətən yuxarı vəzifəli, yuxarı maaşlı işlərdə işləmək üçün əksərən humanitar və təhsil sahələrində işləməyə, onların bu işləri əldə etmələri üçün elmi dərəcələrini yüksəltməyə məcbur edir. Əlavə olaraq, qadınlar yuxarıdakı qrafikdə qeyd olunan doktoranturaya qəbul olduqdan sonra, heç də çox vaxt bu dərəcəni almaq üçün təhsillərini davam etdirmirlər. Çünki onların qarşılarında ailə məsuliyyəti, ana obrazını "layiqincə" daşımaq durur.

**13. 2020-ci ilin əvvəlinə elmin sahələri bölgüsündə elmlər doktoru proqramı üzrə təhsil alanlar**

(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)

| İxtisas qrupları | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Pedaqogika | 2,9 | 0,7 | 81,8 | 18,2 |
| Kimya | 10,8 | 5,1 | 69,4 | 30,6 |
| Tibb | 1,3 | 5,7 | 19,0 | 81,0 |
| Biologiya | 11,7 | 7,7 | 62,7 | 37,3 |
| Fizika və riyaziyyat | 4,1 | 4,7 | 48,1 | 51,9 |
| Tarix | 8,9 | 10,7 | 46,7 | 53,3 |
| Memarlıq | - | 0,3 | - | 100,0 |

| | | | | |
|---|---|---|---|---|
| Fəlsəfə | 1,0 | - | 100,0 | - |
| Siyasi elmlər | 2,2 | 3,4 | 41,2 | 58,8 |
| Filologiya | 23,8 | 9,1 | 73,5 | 26,5 |
| Sənətşunaslıq | 3,5 | 2,7 | 57,9 | 42,1 |
| Texnika | 7,3 | 11,7 | 39,7 | 60,3 |
| İqtisadi | 7,3 | 9,5 | 45,1 | 54,9 |
| Aqrar | 9,8 | 17,5 | 37,3 | 62,7 |
| Hüquq | 2,2 | 4,1 | 36,8 | 63,2 |
| Yer elmləri | 1,6 | 5,1 | 25,0 | 75,0 |
| Digər | 1,6 | 2,0 | 12,3 | 87,7 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 51,6 | 48,4 |
| nəfər | 315 | 296 | x | x |

(4)

Qrafiklərin göstəriciləri kifayət edir ki, təhsildə əslində demək olar ki, olmadığı vurğulanan gender bərabərsizliyini aktual məsələ kimi ortaya qoyaq. İstər təhsil sahəsi, istərsə də iş sahələrində qadınların imkanları kişilərin imkanlarından daha aşağı səviyyədədir.

Azərbaycanın təhsil sistemi tarixən humanist mahiyyətdə, maarifçilik ənənələrinə və bəşəri dəyərlərə sadiq olmuşdur. Təhsilin inkişafında qadınların xüsusi yeri vardır. Pekin Platformasınm 69-88-ci maddələrinə uyğun olaraq, Azərbaycan Respublikasının təhsil sistemində plan, proqram, peşə hazırlığı və işlə təminin həyata keçirilməsində qadınların iştirakına qanuni imkan yaranmışdır. 1992-ci ildə, müstəqilliyin ilk ilindən qəbul edilmiş “Təhsil haqqında Qanun"a və 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən, cinsindən asılı olmayaraq bütün uşaqlara 6 yaşından etibarən 11 illik icbari təhsilalma hüququ verilir.

Keçmiş Sovetlər İttifaqında qadınlarm məşğul olduğu bir sahə də məktəbəqədər tərbiyə ocaqları idi. Bu li tipli iş yeri qadına ikitərəfli sərf edirdi: o həm uşağını

bu tərbiyə müəssisəsinə verir, həm də özünün işlə təminatı ödənilirdi. Bu tipli tərbiyə sistemi - körpələr evi, uşaq baxçaları və s. iqtisadi strukturun yeniləşməsi ilə öz formasını dəyişdi. Belə tərbiyə ocaqları ya müəssisələrin daxilində, ya da sərbəst formada, yəni ödənişli olaraq yaradılmışdı.

Köhnə sistemin dağılması nəticəsində minlərlə qadın işsiz qaldı. Bu hallar texniki peşə məktəbləri üçün də xarakterik idi. Respublikada ödənişli kollec, gimnaziya və liseylər fəaliyyət göstərir. Belə vəziyyət alternativ təhsil sistemində güclü rəqabət yaratsa da, digər cəhətdən, az təminatlı ailələrin uşaqlarının yaxşı təhsil almasında məhdudiyyətlər yaradır.

Azərbaycan qadının ümumi təhsil səviyyəsi yüksəkdir. Lakin müharibə faktoru, onun nəticələri respublikada təhsilin səviyyəsinə də mənfi təsir göstərmişdir. Azərbaycanın 1990-cı illər zamanı işğal olunmuş ərazilərində 12000 yerlik uşaq bağçası və körpələr evi; 117000 şagirdin təhsil aldığı ümumtəhsil məktəbi, 21000 yerlik kollec, bir çox məktəbdənkənar müəssisə və ali məktəblərin filialları itirilmişdir. 20000-dən çox müəllim, o cümlədən, qadın müəllimə qaçqın olmuşdur. Beynəlxalq humanitar təşkilatların köməyi ilə çadır düşərgələrində, yığma evlərdə müvəqqəti məktəblər yaradılmış, qismən də olsa çətinlik dəf olunmuşdusa da, təhsil prosesi tam həll edilməmişdi. UNİCEF-in dəstəyi ilə çadırda məskunlaşmış 3-6 yaşlı uşaqlar üçün yarı funksional mərkəzlər açılmışdı, eyni zamanda, onlara psixoloji kömək göstərilirdi. (37)

İndiki Təhsil naziri müavini Firudin Qurbanovun bildirdiyinə görə, işğaldan azad olunmuş torpaqlarımızda təhsil ehtiyacları, təhsil infrakstrukturlarının vəziyyəti müəyyyənləşdirilməli, bu ərazilərdəki vətəndaşlarımız üçün yeni təhsil planı hazırlanmalıdır. Onun verdiyi məlumata görə, “ İşğaldan əvvəl bu torpaqlarda 259 məktəbəqədər təhsil, 673 ümumtəhsil müəssisəsi, 40

məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla, ümumilikdə 993 təhsil müəssisəsi fəaliyyət göstərirdi.” (20)

Təbiidir ki, Azərbaycan xalqının illərdir yaşadığı bucür çətinlik hər sferada özünü büruzə verdiyindən, qadınların təhsilində və yüksək səviyyəli iş perspektivində, sosial aktivliyinə yönələn planların həyata keçirilməsində də kifayət qədər önəmli boşluqlarını tapmaq asandır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanın Çar Rusiyası dövründən indiyə kimi keçdiyi bütün siyasi, iqtisadi və mədəni inkişaf proseslərinə, eyni zamanda çətinliklərinə baxıldıqdan sonra, ölkənin hazırki imkanlarının geniş əhatəliliyini də nəzərə alaraq, ölkə vətəndaşlarının normal həyat tərzinə hopan, qadın və kişi olduqlarına dair yaradılmış kəskin davranış və düşüncə stereotiplərinin açıq-aşkar varlığı, eyni zamanda bunun təhsil sistemində də demək olar ki, hər istiqamətdə görüldüyü və buna qarşı həyata keçirilən tədbirlərdə əksiklik və ya çatışmazlıq olduğu nəticəsinə gəlinmişdir.

1.Birinci fəsildə Azərbaycan təhsil tarixinin önəmli məsələləri vurğulanmış, gender stereotiplərinin təhsilimizi və yaşamımızı necə istiqamətləndirdiyi aydın şəkildə göstərilmişdir. Belə ki, təhsildəki geriliklər, insanların təhsilə marağının olmaması, qadınların təhsilinə qarşı göstərilən müqavimət və ya diqqətsizlik, əhalinin savadsızlığı, öz haqlarından xəbərsizliyi tarixən yaşadığımız siyasi problemlərin, ölkənin SSR-in tərkibində olması, dinin düzgün şəkildə təbliğ olunmaması və iqtisadi vəziyyətimizin aşağı olması ilə əlaqələndirilir. Bugün də Azərbaycan Respublikası sürətlə inkişaf etməsinə, rəqabətə davamlı dövlət kimi tanınmasına, iqtisadi, sosial və siyasi cəhətdən öndə duran ölkələrdən olmasına baxmayaraq, təhsilimizdə görünən və görünməyən gender problemlərini, ailədən, məktəbəqədər təhsildən və digər sosial mühitlərdən gələn stereotipləri göz önünə gətirməli, onları aradan qaldırmaq üçün tədbirlər görməlidir.

2. Tariximizdən indiyə kimi gələn bu stereotiplər insanların bir həyat biçimi olmuşdur və onlar gələcəklərini, gələcək nəsilləri də bu yöndə yetişdirir, onlara da həyata eyni çərçivədən baxmağı öyrədirlər. Dövlətin keçirdiyi tədbirlər güclü nəticə vermir, çünki şagirdin yaxud tələbə hansı dərəcədə məlumatlandırılmasına baxmayaraq, ailə mühitindəki, məktəb mühitindəki tərbiyənin, tərbiyəvi tədrisin

tərkibində hələ də stereotiplər qalırsa, o zaman ediləcək bütün digər səylər effektiv olmur. Bir valideyn və bir müəllimin ötürdüyü informasiya, öyrətdiyi dərs 1 saatlıq, 1 həftəlik, 1 aylıq təlimdən daha güclüdür. Ona görə də, ilk növbədə tələbə (şagird) ilə müəllim, övlad ilə valideyn arasındakı emosional əlaqələrdən yararlanılmalıdır, ailə və təhsilverən maarifləndirilməli, onlarda cinsi bərabərliyə qarşı həssaslıq ciddi şəkildə yaradılmalıdır.

Xüsusilə, təhsilverənlər bu sahədə bilgilənməkdən əlavə, onların dünyagörüşünün artırılması üçün bütün vacib tədbirlər görülməli, dərslərə xüsusi nəzarət yetirilməlidir. Məktəblərdə xüsusi nəzarət komitəsi yaradılmalı, bu komitənin müəyyən müddətdən bir əldə etmiş olduğu nəticələr və onların analizi Pedaqoji şuranın iclaslarında müzakirə olunmalı və eyni zamanda yeni təkliflər irəli sürülməlidir. Müəllimlərə verilən kurslar yalnızca öz peşə fəaliyyətlərinə, İKT-yə və ya tədris etdikləri fənnlərə uyğun olmamalıdır, təhsil və gender bərabərliyi mövzusunda xüsusi təlimlər və kurslar da verilməlidir.

Şagirdlərlə üz-üzə və yaxın münasibət qurma şansı olan müəllimlər, gender bərabərliyinə nail olmaq üçün yeni meyarların, gender rollarının inkişafında çox vacib rol oynaya bilər. Bunun həyata keçməsi üçün birinci növbədə, müəllim hazırlama siyasətinin ana açarı olan "keyfiyyətli müəllim" anlayışına gender bərabərliyinə qarşı həssaslığı da daxil etmək ve müəllim hazırlayan qurumların bu mövzunu əsas(məcburi) dərslər çərçivəsində keçməsinə dəstək verməkdir. Lakin bu bir istiqamətli cəhdlərlə baş tutmayacaqdır. Çünki müəllim hazırlayan təhsil müəssisələrində öyrədilən tədris metodikalarının, oxudulan dərs kitablarının və bu müəssisələrdə işləyən akademiklərin dünyagörüşü ilə ötürdüyü birbaşa məlumatlar, hazırlanan müəllimlərin özlərinin də kişi hakimliyi, gender bərabərsizliyi düşüncəsi ilə prosesə daxil olduğunu və onu davam etdirdiyini göstərir.

Bu çərçivədə gender araşdırmalarının gücləndirilməsi, təhsil fakültələrində akademiklərin gender mövzularına qarşı həssaslığının artırılması üçün seminarların təşkili, gender bərabərliyi məsələsinin tədris planının tərkibinə daxil edilməsi və seçmə fənn kimi dəstəklənməsi vacib addımlar olacaqdır.

Məktəblərin əksəriyyəti eynicinsli mühit olduğundan qızların və oğlanların akademik və şərait baxımından tələbatlarının fərqli olduğunun fərqinə varmalıyıq. Təəssüflər olsun ki, bugün ölkəmizdəki məktəblərdə otaqların rəngindən başlayaraq, verilən dərslərin saat bölgüsünə kimi qızlar və oğlanlar üçün onların cinslərinə uyğun daha yaxşı öyrənmə və bacarıqlarını artırma yönündə xüsusi addımlar atılmır. Ölkə təhsili irəriləyir, amma bu qızların və oğlanların ayrılıqda ehtiyaclarını ödəyən bir sistem yarandığı anlamına gəlmir və demək olar ki, gender bərabərsizliyinə həssas təhsil sistemimiz yoxdur.

Əlavə olaraq, bugün bütün dünyada geniş yayılmış və hələ də yayılmaqda davam edən GSM-lər haqqında maarifləndirilmə vacibdir. Nəzərə almaq lazımdır ki, cinsi azlığa mənsub olan şəxs əksərən uşaq vaxtından, yeniyetməlik dövründən özündə bu fərqliliyi görür, ayırd etməyə çalışır. Sırf LGBT mövzusunda zorakılığın hər növünə məruz qalan qadınlar və kişilər vardır. Bu mövzuda xüsusilə müəllimlər təlimləndirilməli, belə hallarla qarşılaşdıqları zaman verəcəkləri reaksiya yaxud yanaşma həssas dövrdə olan uşağa psixoloji təsir etməməlidir. Ölkəmizdə təhsil sahəsində sırf bu istiqamətdə ciddi işlər aparılmalıdır, uşaqların, tələbələrin bu insanlara qarşı zoraki, kəskin davranmalarına qarşı düzgün maarifləndirilməlidir. Təhsildə gender bərabərliyi anlayışının inkişafından danışarkən, bunu kənara atmaq mümkün deyil. Unutmamalıyıq ki, təhsil hüququnun ilk prinsipi məhz humanistlik prinsipidir və humanistlik prinsipi özlüyündə insan hüquqları və azadlıqlarının, tolerantlığın, insanlara hörmətin daşıyıcısıdır.

İkinci fəslin ikinci paraqrafında kişilərin stereotipləri dəstəklədiyi və hətta burada heç bir problemin olmadığı fikirlərini görürük. Kişilər üçün, xüsusilə ailə başçısı olanlar üçün ilk növbədə, gender bərabərliyi məsələsini görünən etmək labüddür. Gender bərabərliyinin Azərbaycan ənənələri, mentaliteti və dəyərləri çərçivəsində, lakin ədalətli şəkildə təmin olunması onlara çatdırılmalı, onların bu bərabərsizliyin neqativ yönlərini və nəticələrini görməsini təmin etməliyik. Bunu onlara başa salmaq üçün ilk növbədə araşdırmalıyıq :

- Onlar niyə cəmiyyətdə, ailədə, təhsildə və peşə fəaliyyətində gender bərabərliyi mövzusuna qarşı çıxırlar?

- Bərabərlik təmin olunduğu halda hansı haqqlarının itiriləcəyindən qorxurlar?

Daha sonra, onlara ədalətli bərabərliyin təminatının əslində təkcə onların özü üçün, onların qız övladlarının xeyri üçün olduğunu göstərməkdən əlavə, cəmiyyətə və dövlətin inkişafına nə cür güclü töhfələr qatacağını da izah etmək. əslində elə məhz onların yaşamaq istədikləri həyatı onlara bu üsulla əldə etməyin mümkün olduğunu aşılamaq və dünya ölkələrinin statistikalarına baxdıqda, gender bərabərliyinin ədalətli təmin olunduğu təqdirdə, cəmiyyətin və ailələrin, eləcə də insanların xoşbəxtlik səviyyələrinin çox yüksək olduğunu onlara bildirmək və onları bu yolda dəstəyə çağırmaq lazımdır. Beləliklə, məktəblərin ailələrlə münasibətləri daha möhkəm olmalı, əməkdaşlıq səviyyələri artmalıdır.

2-ci fəslin üçüncü paraqrafında iş mühitindəki ayrı-seçkilik incələnmişdir. Təhsilin davamı olan karyera, iş mühiti də özündə stereotiplərin daşıyıcısıdır. Qadınlar hələ də bütün imkanların bərabər olduğu bir vaxtda aşağı statuslu, aşağı maaşlı vəzifələrdə çalışması görünməyən, lakin tətbiq edilən cinsi bərabərsizliyin nümunəsidir və iş mühitində qadınların sayının illərdən bəri çox cüzi artması görülən tədbirlərdən daha çox, təbii inkişafla əlaqəlidir. Bunun üçün yaradılmalı

olan tədbirlər sıx və intensiv şəkildə olmalıdır ki, yaxın gələcəkdə nəticəsi görülə bilsin.

3.Üçüncü fəsildə qeyd etdiyim araşdırmanın kəmiyyət yönümlülüyündən əlavə , keyfiyyət yönümlü tədqiqat da aparılmalı, statistikalarda olmayan, əslində isə orta təhsilini tam bitirməyən qadınlarla da bağlı önəmli nüanslar üzə çıxarılmalıdır.

3 - cü fəsil orta məktəbdən doktorantura pilləsinə kimi, elmlər doktoru adına kimi incələnmiş statis tik göstəricilərdən ibarətdir. Bu statistikalar ən birinci fəsildən, tarixən yaddaşımıza həkk olunmuş, təhsilimizi qadın-kişi ixtisasları, qadın-kişi işləri, qadın-kişi təhsil pillələrinə qədər bölən, erkən nikahlara, gənc anaların doğuşlarına, məlumatsızlıqdan yaranan cinsi xəstəliklərə səbəb olan gender stereotiplərindən qaynaqlanır.Nəticə etibarilə, hələ də bu kimi neqativ stereotiplərin ailə-məktəb münasibətlərinə, təhsil sisteminə, iş mühitinə və birbaşa uşaqların və gənclərin şəxsi həyat tərzlərinə hansı zərbələr vurduğunua açıq aşkar görə bilirik. Bu dissertasiya işi zamanı aparılan tədqiqatlardan çıxan nəticələr və boşluqlar daha dərindən öyrənilməli, hər biri ən az bir dissertasiya işi qədər araşdırılmalı və ölkəmizdəki gender bərabərsizliyi problemini həm təhsildə, həm də digər sahələrdə görünən və daha aktual məsələyə çevirməliyik.

Qadınların elmi və akademik mühitlərdə az təmsil edilməsi, görülməsi hamı tərəfindən qəbul edilmiş uyğun olmayan bir faktdır və bu əslində, problem olaraq çox narahat edicidir. Qadınların bu hallarla qarşılaşması cəmiyyətin bu şəraitə uygun yaşaması bu cəmiyyətdə yaşayan orta və yuxarı yaşlı bütün insanların olduqları sosial və təhsildəki mühitdən irəli gəlir. Elm sahələrində qadın rollarının olmaması və ya aşağı statuslu olması ilkin və orta təhsil müddətində onlara təlqin edilmiş bir faktdır.

Bundan əlavə, orta və ali məktəblərdə cinslərin rolu ilə əlaqədar mövcud stereotiplər və yanlış mühakimə ilə mübarizə şagirdlərə təkcə bioloji əsaslı deyil, sosial şəraitli gender xarakteristikaları arasında fərqlərin, qadınlar və kişilər üçün tarixən gəlmiş yazılmamış qanunların da tədrisi həyata keçirilməlidir. Şagirdlər gender müxtəliflikləri və stereotipləri ilə bağlı özlərinə və başqalarına qarşı fikirlərin qiymətləndirilməsi üçün həvəsləndirilməli və onlar cəmiyyətdə yaranmış yanlış stereotiplərə qarşı əsaslı şəkildə təlimatlandırılmalıdırlar.

Orta məktəblərdə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil edilən təlim proqramları vasitəsilə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya təqdim və təbliğ edilərək yayılır. Bu proqramlara stereotiplərin və onların qadın hüquqlarının həyata keçirilməsinə mənfi təsirin təhlili daxildir. Lakin bu proqramlar bizə kifayət etmir. Gender məlumatlandırılması tədris proqramına daxil olmalı, şagirdlərin(tələbələrin) bu mövzuda tərbiyələndirməsi zəruri hal almalıdır.

Müasir təhsil proqramının xüsusiyyətlərində şəxsiyyətyönümlülüyün izahını qısaca olaraq belə görə bilərik:

"Təhsil təhsilalanın idraki, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır" (43)

Burada əsas açar söz milli və bəşəri dəyərlərin formalaşdırmasıdır. Milli dəyərlərimizə hopmuş bəzi stereotiplər bizi millət edən və tarixən tanıdan xalq halına gətirsə də, gender məsələsinin də hələ də aktual problem olmasına gətirib çıxaran amillərdir. Milli kurikulumumuzun prinsiplərinə də bu gender mövzusunu əlavə etmək və milli dəyərlərimiz çərçivəsində onu tədris etmək təkcə

təhsilimiz yönündən deyil, iqtisadi, sosial və siyasi yöndən uğurlu bir irəliləyiş olar.

Sonda isə qeyd etmək olar ki, gender bərabərsizliyi probleminin təhsildə həll olunması, yox sayılacaq qədər azaldılması cəmiyyətin, ölkənin hərtərəfli inkişafı, rəqabətqabiliyyətli dövlətə çevrilməsi, inkişaf etmiş ölkələrlə ayaqlaşa bilməsindən əlavə, insan hüquqlarının birbaşa təminatı və xalqın daim öyrənmə və rifah içində yaşamasına da gətirib çıxaracaqdır. İnsan hüquqlarının bərqərar olması onun iki fundamental dəyərlərinin – insan ləyaqəti və hamı üçün bərabərliyin yerinə yetirilməsi ilə baş tutur. Buna görə də ümumtəhsil məktəblərində həm insan hüquqları mövzusuna, həm də gender bərabərliyi mövzusuna geniş yer verilməlidir.

# Ədəbiyyat siyahısı


1. Ailə,Qadın, Uşaq jurnalı, nömrə 18, (2016) http://scfwca.gov.az/store/media/Ail%C9%99%20Qad%C4%B1n%20U%C5%9Faq%20jurnal%C4%B1n%C4%B1n%2018-ci%20say%C4%B1.pdf
2. Aysel Abdullazadə “Qadın və təhsil problem” (2015) https://www.dosye.org/qadin-v%C9%99-t%C9%99hsil-problemi/
3. Azərbaycan Gender İnformasiya Mərkəzi, Qlossariy, http://education.gender-az.org/index_az.shtml?id_main=1&id_sub=1&id_sub_sub=8
4. Hicran Hüseynova, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, AR-nın BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” konvensiyası üzrə 4-cü dövri hesabatı (2018) http://scfwca.gov.az/store/media/cedaw_az_ministries[1].pdf
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi; (2020) https://www.stat.gov.az/source/gender
6. Azərbaycanda Gender bərabərliyi və Gender münasibətləri: mövcud vəziyyət və imkanlar; BMT-nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı Nümayəndəliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi “Promundo” Beynəlxalq təşkilatı Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM) Bakı, Azərbaycan (2018) https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gender%20equality-az_0.pdf
7. Azərbaycanda təhsilli evdar qadınların hekayələri: Universitetdə niyə oxumuşdum?, Dekabr 2018 https://www.bbc.com/azeri/azerbaijan-46474235

8. Azərbaycanda erkən nikah problemi; statistika, səbəblər və həlli yolları; noyabr 2016 https://www.teleqraf.az/index.php/xeber3/9425-erkennn.html
9. Cəfər Cabbarlı, “Almaz” əsəri (1936)
10. Cəfər Cabbarlı, “Sevil” pyesi (1929)
11. Erkən nikahların sayı artır; Mart 2019, https://lent.az/news/308343
12. Əli Abasov, Rəna Mirzəzadə, qenderə giriş (1999)
13. Fəsil 9. Gender bərabərliyi və İnsan inkişafı, UNDP (2010) https://www.az.undp.org/content/dam/azerbaijan/docs/publications/sustainabledevelopment/HDtextbook/9.pdf
14. Flora Xəlilzadə Azərbaycan, № 54.- S. 6. Mart 2017 http://mehribanaliyeva.preslib.az/media-1069583751.html
15. Gender elminə giriş (1-ci cild), Qərb Universiteti Gender araşdırmaları mərkəzi (2005)
16. Gender Qiymətləndirilməsi(İcmal); Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014–2018, https://www.adb.org/sites/default/files/linked-documents/cps-aze-2014-2018-ga-az.pdf
17. Gender və Təhsil: İnsan və Cəmiyyət, Bakı, Azərbaycan, sentyabr 2006 http://azkurs.org/gender-ve-tehsil-insan-ve-cemiyyet.html
18. Gəncəli Sabir, Azadlıq yollarında. Azərnəşr, Bakı (1980)
19. İnqilab Əhmədov, Azər Mehtiyev, Murad Bağırzadə, Kənan Aslanlı; “Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili” üzrə tədqiqat; Bakı2018 http://www.budget.az/upload/files/Gender_budget_-_final_versiont_-_az.pdf
20. Nazir müavini: "İşğaldan azad olunmuş ərazilərdə təhsil fəaliyyətinin təşkili ilə bağlı planlar hazırlanmalıdır"; Dekabr 2020, https://apa.az/az/sosial_xeberler/Nazir-muavini-Isgaldan-azad-olunmus-razilrd-thsil-faliyytinin-tskili-il-bagli-planlar-hazirlanmalidir-621763

21. Oğlan və qız şagirdlərin sayı arasındakı uçurum; Sentyabr 2020, https://yenisabah.az/oglan-ve-qiz-sagirdlerin-sayi-arasindaki-ucurum

22. Təhsil; Modern.az xəbər agentliyi; Avqust 2017,
https://modern.az/az/news/139700

23. T.K.Zeynalova, Cəlil Məmmədquluzadə və Qadın azadlığı problemi, Bakı Dövlət Universiteti, 2006
http://static.bsu.az/w8/Xeberler%20Jurnali/sosial%202006%203/56-62.pdf

24. Uşaq yaşlarında Gender sosializasiyası; Uşaq yaşlarında Gender sosializasiyasının assimmetriyası
https://www.yumpu.com/xx/document/read/36874891/uaaq-yaalaranda-gender-sosiallaamasa

25. Ülviyyə Vahidqızı, "Xalq qəzeti", iyul 2018
http://www.anl.az/down/meqale/xalqqazeti/2018/iyul/599243.pdf

26. Annalise Moser, Gender and İndicators (2007)

27. Arzu Qeybulla; From emancipation to restraint: violence and gender inequality in Azerbaijan; june 2015
https://www.opendemocracy.net/od-russia/arzu-geybulla/violence-and-gender-inequality-in-azerbaijan

28. Farideh Heyat, Azeri women in transition (2005)

29. Gender equality in education, Berta Soley Daró (2016)

30. Gender Terminology, USAID (2007)

31. İnternational Mathematics Report; TİMSS 2003
https://files.eric.ed.gov/fulltext/ED494650.pdf

32. Narmin Mahmudova, Thirty Firsts, spring 2016
http://www.visions.az/en/news/767/0af728f7/

33. New Trends in Gender and Mathematics Performance: A Meta-Analysis; Janet Hayde, Jennifer Petersen, Marcia C Lin, November 2010

https://www.researchgate.net/publication/47642285_New_Trends_in_Gender_and_Mathematics_Performance_A_Meta-Analysis

34. Prof. Lydia Aziato; Breaking the Glass-Ceiling (2019) https://webcache.googleusercontent.com/search?q=cache:0bjUcnDANOIJ:https://www.daad-ghana.org/files/2019/04/BREAKING-THE-GLASS-CEILING-Prof-Aziato.pdf+&cd=1&hl=az&ct=clnk&gl=az

**İnternet resursları:**

35. file:///F:/GEIE/Gender/Gender%20Bias%20in%20the%20Classroom2.pdf
36. file:///F:/mullim%20gender.pdf
37. http://elibrary.bsu.az/books_90/N_40.pdf
38. http://portal.edu.az/index.php?r=article/item&id=194&mid=5&lang=aztəhsil kurikulumu
39. https://az.wikipedia.org/wiki/Elina_Hac%C4%B1yevan%C4%B1n_%C3%B6l%C3%BCm%C3%BC
40. http://education.gender-az.org/Files/4.1.5az.pdf
41. https://search.library.utoronto.ca/details?2247478&uuid=eb22876c-1411-4be3-9e5e-1f806245fa1f
42. https://www.researchgate.net/publication/47642285_New_Trends_in_Gender_and_Mathematics_Performance_A_Meta-Analysis
43. https://www.edu.gov.az/upload/file/teqdimat/2016/13.pdf

1. **Yaşınız**

- 18-dən aşağı
- 18-22
- 23-29
- 30-45
- 46-64
- 65+

2. **Cinsiniz**

- Qadın
- Kişi
- LGBTQ

1. **Təhsiliniz**

- Tam orta təhsil
- Peşə və ya Orta-ixtisas(texnikom,kollec) təhsili
- Natamam ali təhsili(bakalavr)
- Tam ali təhsil(magistratura və ya doktorantura)
- Heç biri

4. **Ailə vəziyyətiniz**

- Evli
- Subay
- Boşanmış və ya Dul

5. **Ətrafınızda orta təhsilini davam etdirməyən qız uşağı(yaxud gənc nəsil qadın) varmı?**

- Bəli, var
- Xeyr, yoxdur

6. **Nə vaxtsa dərs mühitində öz kişi və yaxud qadın olmağınız ilə bağlı hər hansı narahatlıq yaşamısınızmı? Əgər yaşamısınızsa bu nə ilə bağlı idi?**

- [ ] Cinsinizi(qadın və yaxud kişi olduğunuza dair) alçaldan zarafatlar
- [ ] Məktəb dərsliklərindən birində olan mövzu
- [ ] Dərsin mövzusu
- [ ] Müəlliminizin davranışı və ya sizə qarşı danışığı

9. Uşaqlığınızda atanız və ya ailənizdən hər hansı kişi bu işləri hansı tezlikdə görürdü:

| | tez-tez və ya hər gün | bəzən | nadir hallarda | heç vaxt |
|---|---|---|---|---|
| Yemək hazırlamaq | ○ | ○ | ○ | ○ |
| Evi təmizləmək | ○ | ○ | ○ | ○ |
| Paltarları yumaq | ○ | ○ | ○ | ○ |
| Öz uşaqlarının qayğısına qalmaq-gündəlik tələbatlarını ödəmək | ○ | ○ | ○ | ○ |
| Öz uşaqlarının dərsləri ilə məşğul olmaq | ○ | ○ | ○ | ○ |
| Kommunal xərcləri ödəmək | ○ | ○ | ○ | ○ |

10. Aşağıdakı fikirlərə münasibətiniz:

| | Tamamilə razıyam | Razıyam | Razı deyiləm | Tamamilə razı deyiləm |
|---|---|---|---|---|
| Nə qədər çox qadın işləyirsə, o qədər çox kişi işsiz qalır | ○ | ○ | ○ | ○ |
| Nə qədər çox qadın haqqlara sahib olursa, o qədər çox kişi haqqlarını itirir | ○ | ○ | ○ | ○ |
| Daha çox təhsilli qadın, daha çox etiraz edən insan anlamına gəlir | ○ | ○ | ○ | ○ |
| Qadın üçün təhsil almaq o qədər də vacib deyil, çünki axır-əvvəl evə çörəyi kişi işləyib gətirir | ○ | ○ | ○ | ○ |
| Əgər qadın təcavüzə məruz qalırsa, deməli günah ondadır ki, hər hansı əxlaqsız və ya düzgün olmayan hərəkət edib | ○ | ○ | ○ | ○ |
| Bir çox təcavüz halları qadınların kişiləri şirnikləndirməsi ilə yaranır | ○ | ○ | ○ | ○ |
| Kişilər sərt olmalıdır, qadınlar incə və zərif olmalıdır | ○ | ○ | ○ | ○ |
| Qadının qadın sənəti, kişinin kişi işi var | ○ | ○ | ○ | ○ |
| Çəhrayı qız rəngidir | ○ | ○ | ○ | ○ |